RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 46 (8639) BAZAR, 28 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qətiyyətin təntənəsi

## İlham Əliyev Azərbaycanın ədaləti təmin etdiyini dünyanın diqqətinə bir daha çatdırdı

İkinci Qarabağ müharibəsində qalib gələn Azərbaycan bölgədə tamamilə yeni reallıqlar yaradıb. Bu savaşın nəticəsində respublikamızın ərazi bütövlüyü təmin olunub, Ermənistanın işğal siyasətinə son qoyulub. İlham Əliyevin uğurlu diplomatiyası dünya erməniliyinin beynəlxalq miqyasda ölkəmizə qarşı apardığı qarayaxma kampaniyasının da qarşısını qətiyyətlə alıb. Hazırda üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq regionda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edən layihələrin həyata keçirilməsi istiqamətində işlər davam edir.

### İşğala son qoyuldu, Azərbaycanın dövlət sərhədləri bərpa edildi

Prezident İlham Əliyev ötən il sentyabrın 27-dən sonra xarici mətbuata müsahibələrində, xalqa müraciətlərində, görüşlərində, çıxışlarında müharibənin başlanma səbəbləri barədə ətraflı bəhs etmiş, real vəziyyət, Azərbaycanın şərtləri və planları barədə ictimaiyyəti məlumatlandırmışdı. Azərbaycanın şərtlərinin ifadəsi olan üçtərəfli 10 noyabr Bəyanatı ilə nəinki Ermənistanın işğal siyasətinə son qoyuldu, həm də Azərbaycan Şərqi Zəngəzur, Zəngilan və Qubadlı rayonları istiqamətində dövlət sərhədlərini tam bərpa etdi. Qısa zamanda azad olunmuş ərazilərin minalardan təmizlənməsi istiqamətində mühüm işlər görülüb, Qarabağ bölgəsinin bərpası ilə bağlı infrastruktur layihələrinin icrasına başlanılıb. O cümlədən işğaldan azad olunmuş ərazilərimizdə 7 min hektarda əkin işləri aparılıb. Bütün bunlar Azərbaycanın Qarabağı bərpa etmək əzminin və sülhə tərəfdar olmasının təsdiqi olmaqla müharibədən sonrakı reallıqların vacib məqamlarıdır.

Bu reallığın müəllifi Azərbaycanı qalib edən Prezident İlham Əliyevdir. Yeni reallıqlar dövrünün aparıcı qüvvəsi isə regionda söz sahibi kimi statusunu və mövqelərini qat-qat gücləndirən Azərbaycandır.

Bir daha xatırladaq ki, 44 gün davam edən müharibə ərzində İlham Əliyev 26 nüfuzlu xarici KİV-ə müsahibə vermişdi. Onların demək olar ki, hamısı dünyada tanınan media qurumları idi. Həmin müsahibələr müharibə günlərində Azərbaycana qarşı informasiya cəbhəsi açan dünya erməniliyinə və erməni təəssübkeşlərinə böyük zərbə vurmuş, əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında böyük rol oynamışdı.

### Dövlət başçısı 35-dən artıq KİV əməkdaşının 50-yə yaxın sualını cavablandırdı

Fevralın 26-da yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirən Prezident İlham Əliyev verilən suallara cavablarında bir daha Azərbaycanın hərbi qələbəsini və eləcə də müharibədən sonrakı proseslər barədə vəziyyəti həm yerli, həm də xarici auditoriyanın diqqətinə çatdırdı. Mətbuat konfransı təxminən 4 saat 20 dəqiqə davam etdi. Dövlət başçısı 35-dən artıq yerli və xarici KİV-in əməkdaşlarının 50-yə yaxın sualını cavablandırdı.

İlham Əliyevə suallarını ünvanlayan jurnalistlər bütün dünyada tanınan xarici KİV-i təmsil edirdilər. Türkiyənin CNN, "TRT Haber", "TRT World", "Haber Qlobal" televiziyaları, "Sözçü" və "Yeni Şəfəq" qəzetləri, Anadolu Agentliyi, Rusiyanın TASS, RİA-Novosti agentlikləri, "Zvezda" və "Bolşaya Aziya" mediaholdinqləri, RBK telekanalı, Ukraynanın "Ukraina-24", "5-ci Kanal", "1+1", "İnter" telekanalları, Böyük Britaniyanın "Teleqraf" və "Independent" qəzetləri, "Reuters" Agentliyi, "Middle East Eye" media qurumu, Yaponiyanın "JİJİ PRESS" Agentliyi, İspaniyanın "La Vanguardia" qəzeti, Yunanıstanın "Real Group Media" şirkəti, İranın Mehr Agentliyi yalnız təmsil etdikləri ölkələrdə deyil, regionda və dünyada çoxmilyonlu auditoriyaları olan və ictimai rəyə güclü təsir göstərən kütləvi informasiya vasitələridirlər. Onların Prezident İlham Əliyevə sual ünvanlamaq istəmələri isə ilk növbədə Azərbaycana və onun 44 günlük müharibədə qazandığı tarixi Qələbəyə olan marağın təcəssümü idi.

Ardı 2-ci səh.

# Prezident qayğısı

## Bu il daha 3 minə yaxın şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunacaq

Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş döyüşçü ailələrinin və əlillərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların yeni mənzillərlə təminatı Prezident İlham Əliyevin sosial siyasətinin əsas istiqamətlərindən biridir.

Bu sahədə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar öz həyatlarında hiss edirlər. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzindədir.

### Bu günə qədər 9200-ə yaxın şəhid ailəsinə, müharibə əlilinə yeni mənzil verilib

Təkcə son 2 ildə bu kateqoriyaya aid vətəndaşlara göstərilən diqqət və qayğıya nəzər yetirsək bunun şahidi olarıq. Belə ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərə 2019-cu ildə 800, 2020-ci ildə 1572 mənzil verilib. Bu günə qədər isə ümumilikdə 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində Prezident İlham Əliyev bir daha bu məsələyə toxunaraq vurğulayıb ki, dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Prezidentin bu sahədəki siyasəti birmənalıdır. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı da həmin kateqoriyadan olan əhali qruplarına Prezidentin xüsusi qayğısının növbəti təzahürüdür.

Sərəncam 2020-ci ildə ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin də yaxın dövrdə mənzil və ya fərdi evlə təminatını nəzərdə tutur.

Ardı 6-cı səh.

# İşğaldan azad edilmiş Cəbrayılda aqrar sahənin yüksək templə inkişafı üçün potensial böyükdür

Artıq Vətən müharibəsinin qurtarmasından 100 gündən çox vaxt keçib. Ermənistan acı məğlubiyyətindən hələ özünə gələ bilməyib, orada iqtidar-müxalifət münasibətləri gərginliyin pik nöqtəsinə çatıb. Erməni cəmiyyətində parçalanma və ziddiyyətlər gündən-günə dərinləşir.

Seçkilərdə məğlub olmuş qüvvələr Nikol Paşinyandan qisas almaq üçün bütün Ermənistanı fəlakətə sürükləyirlər. Müharibə edib yenidən Azərbaycan ərazilərini işğal etmək çağırışları bitib-tükənmək bilmir. Üstəlik daxili çəkişmələr ölkənin onsuz da bərbad olan iqtisadiyyatını iflic vəziyyətinə salıb. Bu gün Ermənistan həyat səviyyəsinə görə dünyada ən geri qalan ölkələr sırasındadır.

Azərbaycanda isə tamam başqa mənzərədir. Qələbədən sonra işğaldan azad olunan torpaqların dirçəldilməsi üçün böyük layihələrin icrasına start verilib. Hazırda həmin ərazilər minalardan təmizlənir, yollar, elektrik xətləri çəkilir, su elektrik stansiyaları bərpa edilir, hava limanı inşa olunur, dəmir yolu xətlərinin tikilməsinə hazırlıq işləri görülür. Artıq bu ərazilərdə "ağıllı kənd" layihəsinin icrasına başlanıb, "yaşıl enerji"dən istifadə etmək üçün Günəş və külək elektrik stansiyalarının tikilməsi proqnozlaşdırılır, mədəni və dini abidələrin bərpası planlaşdırılır. Məqsəd qısa bir müddətdə "böyük qayıdış"a başlamaqdır.

Torpaqlarımız işğaldan azad ediləndən sonra bütün dünya ermənilərin burada törətdikləri vandalizmin şahidi oldu, bu gün isə torpaqlarımızı bərpa etməkdə əzmkarlığımızı görür. Hətta müharibədən əvvəl və savaş dövründə ermənilərin tərəfini tutan bəzi ölkələr indi işğaldan azad olunmuş ərazilərimizdə quruculuq-bərpa işlərində iştirak etmək istəyirlər. Bir sözlə, Qarabağda böyük quruculuq işlərinə ciddi başlanıb.

Bəllidir ki, bu torpaqlarda əhalinin başlıca məşğuliyyəti kənd təsərrüfatı olub. Bu üzdən də həmin rayonlarda aqrar sektorun bərpası, eləcə də müasir texnika və texnologiyalardan istifadə etməklə onu daha yüksək səviyyəyə çatdırmaq üçün araşdırmalar aparılır. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin əməkdaşı Ramil Alıyev Cəbrayıl rayonunun bu sahədəki perspektivlərindən danışarkən deyib ki, bu bölgəmiz Qarabağın, Kiçik Qafqaz dağlarının cənub-şərqində, İranla sərhəddə yerləşir. Ərazisi 1050 kvadratkilometrdir. Rayonun torpaqları işğaldan əvvəl bol suyu ilə fərqlənən Araz, İncəçay və Çaylaqçay çayları ilə suvarılıb. Cəbrayıl rayonu ərazisində inşa edilmiş Xudafərin su anbarı vasitəsilə 7500 hektar sahənin suvarılması mümkündür.

İşğaldan əvvəl rayonun əhalisi əsasən kəndlərdə məskunlaşmışdı və əsas məşğuliyyət də kənd təsərrüfatı olmuşdur. Ərazisindəki iqlimin və bol sulu çaylarının verdiyi imkanlar sayəsində rayon sakinləri həm birillik, həm də çoxillik əkinlərini rahat becərə bilirdilər. Əsas məşğuliyyətin əkinçilik olduğu rayonda müxtəlif meyvə, tərəvəz, xüsusilə tütün və üzüm yetişdirilirdi.

Ardı 6-cı səh.

# İlham Əliyevin son bəyanatı Ermənistanı yenə silkələdi

## Azərbaycan Prezidentinin növbəti dəfə ifşa etdiyi hərbi xuntaya qarşı erməni xalqı da etirazlara başladı

Ermənistanda aylardır davam edən siyasi gərginlik səngimək bilmir. Bununla yanaşı, ölkənin iqtisadi tənəzzülü daha da dərinləşib, xaricdən iqtisadi asılılığı artıb. Xarici borc çoxalıb və onu qaytarmaq üçün ölkə lazımi resurslara malik deyil. Son günlərdə Yerevanda belə etiraflara rast gəlinir ki, Ermənistanın acınacaqlı vəziyyətə düşməsinin əsas səbəbləri 30 ilə yaxın davam edən işğalçılıq siyasəti və buna görə Azərbaycanın gördüyü tədbirlər idi.



### Revanş istəyi Yerevanda vətəndaş qarşıdurmasına gətirib çıxarıb

Ötən illərə nəzər yetirdikdə şahidi oluruq ki, Azərbaycan Ermənistanın ifşasını uğurla həyata keçirib. Beynəlxalq tədbirlərdə Prezident İlham Əliyev Ermənistanın işğal siyasətini davamlı şəkildə ifşa edib, onun rəhbərliyini çıxılmaz vəziyyətə salıb. 44 günlük Vətən savaşında Ali Baş Komandanın və Azərbaycan Ordusunun dəmir yumruğu Ermənistanı məğlub etməklə yanaşı, siyasi və sosial-iqtisadi xaosa sürükləyib.

Son günlərdə keçmiş hərbi xuntanın revanş istəyi isə Yerevanda vətəndaş qarşıdurmasına gətirib çıxarıb. Bu isə Ermənistanda çoxsaylı problemlərin miqyasını bir qədər də genişləndirəcək.

Fevralın 26-da Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında deyib ki, Ermənistanda baş verən hadisələr bu ölkənin daxili işidir. Azərbaycan Prezidentinin fikrincə, Ermənistan elə bir ağır durumdadır ki, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərləridir. Çünki iyirmi il ərzində Koçaryan-Sarkisyan xuntası Ermənistanı faktiki olaraq uçuruma apardı və böhranlı vəziyyətə gətirib çıxardı. Ölkə demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, daha çox müstəmləkəyə bənzəyirdi. Bunun əsas səbəbi isə işğalçılıq siyasətidir.

### İnformasiya savaşında inamlı qələbə

Prezident İlham Əliyevin Ermənistanla bağlı fikirləri, verdiyi açıq mesajlar erməni mediasının, sosial şəbəkə istifadəçilərinin də nəzərindən qaçmadı. Ermənilərin sosial şəbəkələrdəki statusları, şərhləri göstərir ki, onlar ölkələrinin məhvə doğru getməsi, İlham Əliyevin Ermənistan üzərində üstünlüyünün artması barədə ortaq rəydədirlər.

Ardı 3-cü səh.

# Yoluxma ocağına çevrilən avtobuslar

## Paytaxtın nəqliyyat qurumları pandemiya sınağından uğurla çıxa bilmir



Qlobal pandemiya ilə mübarizə Azərbaycanda da davam edir. Koronavirusla bağlı müşahidə olunan hazırkı müsbət dinamika respublikamızın qlobal bəlaya qarşı apardığı düzgün strategiyanın göstəricisidir.

Ötən 1 ilə yaxın müddətdə xidmət sahəsindəki dövlət qurumları virusun yayılmasına imkan verməmək üçün fəaliyyətlərini pandemiya şəraitinə uyğunlaşdırdılar. Bakının ictimai nəqliyyat sistemində də bu istiqamətdə müəyyən addımlar atıldı. Təəssüf ki, bəzi qurumların fəaliyyəti koronavirusla mübarizədə müəyyən olunmuş prioritetlərdən uzaq oldu.

### Sərnişindaşımaya nəzarətin düzəlməyən problemləri

Ölkəmizdə, o cümlədən paytaxtda nəqliyyat, xüsusən də sərnişindaşıma sisteminin təkmilləşdirilməsi hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Dövlət başçısı paytaxtın nəqliyyat sisteminin və infrastrukturunun inkişafı, sərnişindaşıma xidmətinin müasir tələblərə uyğun təşkili istiqamətində mühüm qərarlar qəbul edir, kifayət qədər vəsait ayırır. Prezidentin tapşırığına uyğun olaraq sərnişindaşıma xidmətinin daha da təkmilləşdirilməsi üçün Bakıya yüzlərlə müasir avtobuslar gətirilir.

Lakin pandemiya ilə mübarizə dövründə məhz paytaxtın sərnişindaşıma xidmətindəki nöqsanlar göstərdi ki, vətəndaşları narahat edən problemlər: marşrutların düzgün nizamlanmaması, əhaliyə lazımi səviyyədə xidmət göstərməməsi, tez-tez qəzaların baş verməsi, sərnişindaşımada yaşanan arzuolunmaz vəziyyət və s. hələ də qalmaqdadır.

Ardı 6-cı səh.

# "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10, № 6, maddə 414; 2001, № 5, maddə 293, № 11, maddə 687, № 12, maddə 740; 2002, № 5, maddə 241, № 6, maddə 328, № 12, maddə 706; 2004, № 5, maddə 318; 2005, № 4, maddə 281, № 8, maddə 699, № 10, maddə 903, № 11, maddə 993; 2007, № 1, maddə 4, № 2, maddə 69, № 8, maddə 745, № 11, maddələr 1053, 1075; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 1, maddə 5, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 7, maddə 597, № 11, maddə 938; 2011, № 4, maddə 258, № 12, maddə 1098; 2012, № 10, maddə 946; 2013, № 11, maddə 1271; 2014, № 11, maddə 1353; 2015, № 5, maddə 487; 2016, № 1, maddə 11, № 7, maddə 1243, № 12, maddə 2025; 2017, № 2, maddə 148, № 12 (I kitab), maddə 2236; 2018, № 7 (I kitab), maddə 1388, № 8, maddə 1673, № 11, maddə 2230; 2019, № 1, maddə 22, № 6, maddələr 993, 997, № 11, maddə 1681; 2020, № 8, maddə 1014) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 29-cu maddənin altıncı hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 29-cu maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa görə notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun ödənilməsindən azadolmalar tətbiq edilən hallarda xüsusi notariuslar tərəfindən bu haqq və notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

1.2. Aşağıdakı məzmunda 31-1-ci maddə əlavə edilsin:

**"Maddə 31-1. Notariat hərəkətlərinin aparılması üzrə dövlət rüsumunun və haqqın tutulmasının xüsusiyyətləri**

Notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan, o cümlədən notariat işinə əlavə edilməsi məqsədi ilə sənədlərin surətlərinin təsdiqinə, habelə digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcısına keçirilərək təsdiqinə görə dövlət rüsumu və ya haqq, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətə görə haqq tutulmur.";

1.3. 36-cı maddənin birinci hissəsinin ikinci cümləsində "kağız daşıyıcısına keçirilərək" sözləri "kağız daşıyıcıya keçirilərək bu Qanunun 31-1-ci maddəsi nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2021-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

# "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 271-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 271-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 271-VIQD nömrəli Qanununa uyğunlaşdırılmasını təmin etmək məqsədilə iki ay müddətində, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həmin Təlimata müvafiq dəyişikliklər etsin;

2. Həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2021-ci il*

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, № 8, maddələr 1360, 1363, № 7, maddələr 1190, 1192, № 8, maddə 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327; Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 198-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10.18-ci maddədə "2 manat və sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi üçün hər səhifəyə görə əlavə" sözləri "1,5 manat və sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi üçün ikinci səhifədən başlayaraq hər səhifəyə görə" sözləri ilə əvəz edilsin;

1.2. 11.1.5-ci maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 11.1.6-cı və 11.1.7-ci maddələr əlavə edilsin:

"11.1.6. notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxsə verilməsi nəzərdə tutulmayan sənədlərin, o cümlədən notariat işinə əlavə edilməsi məqsədi ilə hazırlanmış sənədlərin notariat qaydasında təsdiq edilməsinə görə;

11.1.7. digər notariat hərəkətinin aparılması çərçivəsində elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə əldə edilmiş məlumat və ya sənədlərin surətinin kağız daşıyıcıya keçirilərək təsdiq edilməsinə görə.".

Maddə 2. Bu Qanun 2021-ci il martın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

# F.Y.Sadıxova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Fikrət Yaqub oğlu Sadıxova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2021-ci il*

# Nazirlər Kabineti "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə 10 alt işçi qrupu yaradıb

Baş nazir Əli Əsədov "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə verilmiş tapşırıqların və uyğun olaraq qarşıda duran məsələlərin icrasının təmin edilməsi haqda Nazirlər Kabinetinin Sərəncamını imzalayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sənədə əsasən, "2021-2025-ci illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılmış Komissiyanın 5 prioritet istiqamət üzrə fəaliyyət göstərəcək 10 alt işçi qrupu yaradılıb və onlara müvafiq tapşırıqlar verilib.

# Qətiyyətin təntənəsi

*Əvvəli 1-ci səh.*

Onu da qeyd edək ki, xarici jurnalistlərin bəziləri azad edilmiş torpaqlara gediblər və Ermənistanın işğal siyasətinin nəticələrini, erməni vandallığını gözləri ilə görüblər. Üstəlik, onlar həm də Xocalı soyqırımının 29-cu ildönümündə Azərbaycana gəliblər. Təbii ki, bunlar onların əsl həqiqətlər barədə məlumatlanmasında və təmsil etdikləri KİV vasitəsilə ictimaiyyətə çatdırmalarında böyük əhəmiyyət kəsb edən amillərdir.

### Mətbuat konfransının ruhunu Azərbaycanın qələbəsi təşkil etdi

Jurnalistlər İlham Əliyevə İkinci Qarabağ müharibəsi və sonrakı proseslər barədə ən müxtəlif suallar ünvanladılar. Dövlət başçısı bu sualların hər birini sonadək dinləyib olduqca əhatəli və dolğun şəkildə cavablandırdı. İlham Əliyev yeni reallıqlarla bağlı jurnalistləri məlumatlandırmaqla yanaşı, həm də Ermənistana xəbərdarlıq etdi.

Ən mühümü o idi ki, jurnalistlər sual verərkən İlham Əliyevin Müzəffər Ali Baş Komandan olmasının fərqində idilər. Prezident onların suallarını həm də qalib dövlətin rəhbəri, qalib lider kimi cavablandırdı. Ona görə mətbuat konfransının ruhunu bütövlükdə Azərbaycanın hərbi qələbəsi təşkil etdi və İlham Əliyev bir daha Azərbaycanın Ermənistanın işğal siyasətinə qətiyyətlə son qoyduğunu, xalqımızın tarixi zəfərini dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Təcrübə göstərir ki, nüfuzlu siyasi liderlərə hər zaman yüksək beynəlxalq maraq olub. İlham Əliyevin isə öz fəaliyyəti, cəsarətli və müstəqil siyasəti, beynəlxalq məsələlərlə bağlı qətiyyətli mövqeyi, dünyada sülhə və təhlükəsizliyə verdiyi töhfələr ilə hər zaman dünyanın yüksək ehtiram olunan dövlət başçıları sırasında dayanıb. Vətən müharibəsindəki Qələbə isə həm Azərbaycanın, həm də onun rəhbərinin nüfuzunu daha da yüksəltdi.

Yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı da Prezident İlham Əliyevin yüksək nüfuzunun təcəssümü kimi yadda qaldı. Bu mətbuat konfransı növbəti dəfə İlham Əliyevin qətiyyətinin, yüksək liderlik keyfiyyətinin təsdiqi oldu. Azərbaycan xalqı bir daha əmin oldu ki, dövlətimizin sükanı etibarlı əllərdədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib





Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri, Baş nazir Əli Əsədovun sədrliyi ilə şuranın növbəti iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 fevral tarixli sərəncamından irəli gələn tapşırıqlara uyğun olaraq nəqliyyat sahəsində fəaliyyət göstərən dörd dövlət şirkətinin - "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Metropoliteni" QSC və "BakuBus" MMC-nin AİH-in idarəçiliyinə verilməsinə dair məsələ şirkətlərin rəhbərlərinin iştirakı ilə müzakirə olunub.

Eyni zamanda iclasda Azərbaycan Respublikası Prezidentinin AİH ilə bağlı imzaladığı fərman və sərəncamlardan irəli gələn tapşırıqlar - portfel şirkətlərdə korporativ idarəetmənin təşkili, səmərəli və şəffaf fəaliyyəti, maliyyə sağlamlığının gücləndirilməsi, dayanıqlı inkişafın təmini və bəzi təşkilati məsələlərə dair fikir mübadiləsi aparılıb. Verilən tapşırıqların vaxtında və tam həcmdə icra olunması əsas tələb kimi qarşıya qoyulub.

Dörd portfel şirkətinin Müşahidə şuralarının tərkibinin formalaşdırılmasına dair təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə qərar qəbul olunub.

Şuranın iclasında AİH-in baş icraçı direktoru Ruslan Əlixanov portfel şirkətlər ilə bağlı qərarların qəbul olunmasına dair səlahiyyət bölgüsü barədə təqdimatla çıxış edib, məsələ ətrafında müzakirələr aparılıb.

# Ermənistan hərbçilərinin Azərbaycan ərazilərinə qanunsuz şəkildə göndərilməsi birgə bəyanatın kobud şəkildə pozulmasıdır

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə göndərilməsi halları ilə bağlı məlumat yayıb. AZƏRTAC həmin məlumatı təqdim edir.

2020-ci il noyabrın 10-da Azərbaycan və Ermənistan arasında bütün hərbi fəaliyyətlərin dayandırılmasını özündə ehtiva edən birgə bəyanatın imzalanmasından sonra Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin beynəlxalq hüququn norma və prinsiplərinə, beynəlxalq insan hüquqlarının əsas prinsiplərinə zidd olaraq Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərində hərbi xidmət üçün göndərilməsi hallarına rast gəlinir.

Ermənistanda fəaliyyət göstərən beynəlxalq media agentliklərinin məlumatlarında Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin aldadılaraq və ya zorla məcbur edilərək Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində hərbi fəaliyyətlərə cəlb edildiyi, bunun həm hərbçilərin, həm də onların ailələrinin etirazına səbəb olduğu bildirilir. Məlumatlarda hərbçilərin valideynlərinin açıq şəkildə öz övladlarını Azərbaycan ərazisində hərbi xidmətə cəlb olunmasına etiraz etdikləri, Ermənistan hərbçilərinin Laçın dəhlizindən gizli şəkildə keçirilərək Azərbaycan Respublikasının ərazilərinə zorla yerləşdirilməklə onların həyatlarının risk altına qoyulduğu, onların işgəncə və qeyri-insani rəftara məruz qaldıqları öz əksini tapır.

Bu xüsusda bildiririk ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərində Azərbaycanın razılığı olmadan hər hansı bir formada yerləşdirilməsi beynəlxalq hüququn norma və prinsiplərinin, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığının, eləcə də Ermənistanın özünün də tərəfdar çıxdığı digər beynəlxalq sənədlərin müddəalarının açıq şəkildə pozuntusudur.

Ermənistan hərbçilərinin hazırda Rusiya sülhməramlı qüvvələrinin yerləşdirildiyi Azərbaycan Respublikasının ərazilərinə qanunsuz şəkildə göndərilməsi, eyni zamanda, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr tarixli birgə bəyanatının kobud şəkildə pozuntusudur.

Xatırladırıq ki, 10 noyabr birgə bəyanatı Rusiya sülhməramlı qüvvələrinin Azərbaycan Respublikasının ərazilərinə yerləşdirilməsinə paralel olaraq Ermənistan silahlı qüvvələrinin həmin ərazilərdən çıxarılmasını nəzərdə tutur. Həmçinin bəyanatda Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verilir. Bu dəhlizin hərbi məqsədlər üçün istifadə olunması, xüsusilə gizli şəkildə, mülki formada və mülki nəqliyyat vasitələrində gizlədilməklə şəxsi heyətin ərazilərimizə yeridilməsi Laçın dəhlizi üzrə hərəkət rejiminin kobud şəkildə pozuntusudur. Bu, sülhməramlı kontingentin nəzarət mexanizmlərinin pozulması olmaqla, kontingentin bölgədə vəziyyətin sabitləşdirilməsi səylərinə zərbə vurur.

Ermənistanın bu addımları həmin bəyanatla regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması, sülh və sabitliyin təmin edilməsini nəzərdə tutan tədbirləri ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

Qeyd etmək istərdik ki, məhz Ermənistan tərəfindən öz silahlı qüvvələrini üçtərəfli bəyanatın qüvvəyə minməsindən sonra ötən ilin noyabr ayının sonlarında qanunsuz şəkildə Azərbaycan ərazisində yerləşdirməsi bölgədə hərbi gərginliyə səbəb olmuşdur. Azərbaycan hərbçilərinə və mülki şəxslərinə qarşı hücumlar təşkil edən Ermənistanın diversiya qrupu antiterror əməliyyatı nəticəsində zərərsizləşdirilmiş, 62 nəfərdən ibarət qrup saxlanılaraq Azərbaycanın istintaq orqanlarına təhvil verilmişdir. Silahlı şəxslərin qanunsuz şəkildə Azərbaycan Respublikasının ərazilərinə daxil olması onların mənsub olduğu ölkə üçün beynəlxalq hüquqi məsuliyyət doğurmaqla yanaşı, həmin şəxslər üçün Azərbaycan Respublikasının milli qanunvericiliyinə uyğun olaraq fərdi cinayət məsuliyyəti yaradır.

Ermənistan hərbçilərinin digər ölkənin - Azərbaycan Respublikasının ərazilərində qanunsuz hərbi məqsədlər üçün istifadəyə, xüsusilə aldatma və zorla məcbur etmə vasitəsilə cəlb edilməsi, həm də beynəlxalq insan hüquqları hüququnun, habelə Ermənistanın da üzv olduğu Avropa Şurası və ATƏT kimi regional təşkilatlar çərçivəsində qəbul edilmiş müvafiq sənədlərdə təsbit edilmiş müddəaların ciddi şəkildə pozulmasıdır.

Azərbaycan tərəfi Ermənistandan özünün silahlı qüvvələrini qanunsuz şəkildə Azərbaycan ərazilərində yerləşdirilməsinə son qoymağı tələb edir və beynəlxalq ictimaiyyəti Ermənistanın bu cür təxribatçı hərəkət və fəaliyyətlərə son qoyması üçün zəruri tədbirlər görməyə çağırır.

Eyni zamanda insan hüquqlarının müdafiəsi mandatı olan təşkilatların Ermənistanın öz silahlı qüvvələrinin nümayəndələrinin insan hüquq və azadlıqlarını kobud şəkildə pozan, onların həyat və sağlamlıqlarını legitim müdafiə ehtiyacı olmadan təhlükə altında qoyan bu hərəkətlərini qətiyyətlə pisləməsi və bu ölkəni qeyd edilən fəaliyyətlərdən çəkindirmək üçün tədbirlər görməsi vacibdir.

Azərbaycan tərəfi bir daha bəyan edir ki, bölgədə sülh və sabitliyin, rifah və dayanıqlı iqtisadi inkişafın təmin edilməsi üçün Ermənistan beynəlxalq hüquqdan, eləcə də 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixlərində imzalanmış birgə bəyanatlardan irəli gələn bütün öhdəliklərinin tam şəkildə və vicdanla icra edilməsinin alternativi yoxdur.

# Avropa İttifaqı missiyasına ölkəmizdə sosial sahədə aparılan islahatlar və milli prioritetlər barədə məlumat verilib



Avropa İttifaqının (Aİ) Azərbaycan üzrə "2021-2027-ci illər üçün Çoxillik İndikativ Proqramlaşdırmanın aparılması prosesi ilə bağlı" missiyası ilə onlayn görüş olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir müavini Anar Kərimov sosial cəhətdən həssas əhali qruplarına qayğının artırılması sahəsində ölkəmizdə atılan addımları diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə məlumat verib. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasının, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının formalaşdırılmasının həmin prioritetlər sırasında olduğunu deyib.

A.Kərimov DOST konsepsiyası, sosial təminat sisteminin aztəminatlı, həssas əhali qruplarına əlçatanlığının artırılması üçün aparılan islahatlardan bəhs edib. Sosial xidmət və reabilitasiya infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi istiqamətində görülən işləri diqqətə çatdırıb.

Missiyanın rəhbəri Vassilis Maraqos, Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və digər missiya üzvləri ölkəmizdə aparılan sosial islahatlarla bağlı fikirlərini ifadə ediblər.

Görüşdə qeyd olunan proqramlaşdırma və əməkdaşlıq üçün üstünlük verilən istiqamətlərə dair fikir mübadilələri aparılıb.

# Azərbaycan neftinin və qazının ixracı üçün heç bir problem yoxdur

## Pandemiya və sərt hava şəraitində hasilat da qaydasında davam edir

Koronavirus pandemiyası nə qədər sınağa çəksə də, Azərbaycan neftçiləri dənizdə və quruda karbohidrogenlərin hasilatını fasiləsiz və təhlükəsiz şəkildə davam etdirirlər. Neftçilərimiz karantin qaydalarına məsuliyyətlə əməl edərək əmək növbəsində dayanıblar. Qışın sərt havasının işi bir qədər də çətinləşdirməsinə baxmayaraq, onlar çiyinlərinə düşən şərəfli vəzifənin öhdəsindən layiqincə gəlirlər. Odur ki, ixrac da ahəngdar həyata keçirilir.




Cari ilin yanvar ayında ölkəmizdən 4 milyon 14,2 min ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edilib. İxrac edilən neft və neft məhsullarının dəyəri 1 milyard 359,7 milyon ABŞ dolları olub. Dövlət Gömrük Komitəsinin yaydığı bu məlumatda bildirilir ki, keçən ilin eyni ayında ölkədən 3 milyon 986 min ton xam neft və neft məhsulları ixrac olunmuş, ixracın dəyəri 1 milyard 960,5 milyon dollar təşkil etmişdir.

Söhbət neft ixracından gedəndə təbii ki, ilk növbədə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri yada düşür. Üç ölkə ərazisində 1768 kilometr məsafə qət edən BTC əsas ixrac boru kəməri 2006-cı ilin iyun ayında istismara veriləndən bəri ümumilikdə 475 milyon tondan artıq (3,57 milyard barel) xam neft daşıyıb. Kəmərin nəql etdiyi neft Ceyhanda 4659 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

BTC-nin operatoru olan BP şirkətinin məlumatına görə, keçən il ərzində kəmərlə 27,8 milyon tondan artıq (təqribən 211 milyon barel) xam neft və kondensat ixrac olunub. Bununla Ceyhanda 278 tanker yüklənib.

Xatırladaq ki, hazırda BTC əsasən Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının neftini və "Şahdəniz" yatağının kondensatını daşıyır. Bundan əlavə, kəmər vasitəsilə müəyyən həcmdə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti də nəql olunur.

Mavi yanacaq ixracını əks etdirən göstəricilər də maraq doğurur. Keçən il Azərbaycandan xaricə qaz satışı 13,5 milyard kubmetr təşkil edib. Əvvəlki illə müqayisədə qaz satışı 1,8 milyard kubmetr, yəni 15,6 faiz çox olub.

Qaz kəmərləri ilə indiyə qədər Türkiyəyə 79 milyard kubmetr Azərbaycan təbii qazı ötürülüb. Bu barədə Energetika Nazirliyi məlumat verib. 2020-ci ildə həmin rəqəm 11,1 milyard kubmetr təşkil edib. Mavi yanacağın 4,7 milyard kubmetri TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri), qalanı BTƏ (Bakı-Tbilisi-Ərzurum) kəməri ilə göndərilib.

Ötən ilin dekabr ayında Türkiyə Azərbaycandan 1,1 milyard kubmetrdən çox təbii qaz idxal edib. Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatından bildirilib ki, dekabrda Azərbaycandan idxal edilən qazın həcmi noyabrla müqayisədə 102 milyon kubmetr çox olub. Həmin ay Türkiyənin ən çox qaz idxal etdiyi ölkələr sırasında Rusiyadan sonra Azərbaycan ikinci yerdə qərarlaşıb. Belə ki, dekabrda Türkiyə Rusiyadan 2,94 milyard kubmetr qaz alıb.

2020-ci ildə Gürcüstana Bakı-Tbilisi-Ərzurum xətti ilə 0,9 milyard kubmetri "Şahdəniz"dən, qalanı SOCAR-dan olmaqla ümumilikdə 1,1 milyard kubmetr, Qazıməmməd-Qazax kəməri ilə isə əsasən SOCAR-dan olmaqla 1,2 milyard kubmetr qaz göndərilib.

Bu ilin yanvar ayında isə ölkəmizdən ümumilikdə 1 milyard 120,2 milyon kubmetr təbii qaz ixrac edilib. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, ixrac edilən təbii qazın dəyəri 100 milyon dollardan çox olub.

Qeyd edək ki, Türkiyə Azərbaycan təbii qazını BTƏ və TANAP-la idxal edir. Qazı Azərbaycandan və Gürcüstandan keçməklə Türkiyə sərhədinədək CQBK - Cənubi Qafqaz Boru Kəməri nəql edir. Burada CQBK-ya qoşulan əlavə borular Ərzurumadək uzanır, odur ki, həmin xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

CQBK 2006-cı ilin sonlarında istismara verilib, o vaxtdan da "Şahdəniz" təbii qazını Azərbaycana, Gürcüstana və Türkiyəyə çatdırır. Genişləndirilmiş CQBK isə kommersiya qaz həcmlərini 2018-ci ilin iyunundan TANAP-a ötürür. İyunun 12-də Əskişəhərdə istifadəyə verilən TANAP-la Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin ayın 30-da başlanıb. Bu kəmərlə Türkiyəyə kommersiya qazının nəqlinə başlanmasının birinci ili 2 milyard kubmetr qaz tədarük edilib. Ticari əməliyyatların ikinci ili keçən il iyunun 30-da bitib və həmin tarixə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetrə çatıb. Cari ildə kəmər Türkiyəyə 6 milyard kubmetr Azərbaycan təbii qazı ixrac edəcək. Sonrakı dövrdə bu boru kəməri ilə ildə 6 milyard kubmetr qaz nəql olunacaq.

2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan təbii qazını TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) ötürmək üçün hazır vəziyyətə gətirilib.TANAP-ın ikinci fazası 2019-cu il noyabrın 30-da istifadəyə verilib. Bu kəmərə birləşdirilən və Azərbaycan təbii qazını Avropaya daşıyan TAP-a sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub.

Xatırladaq ki, TAP boru kəməri ötən ilin sonunda istismara daxil oldu və dekabr ayının 31-də Azərbaycan təbii qazını Avropaya nəql etməyə başladı. TAP-ın işə düşməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi istifadəyə verildi.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# İlham Əliyevin son bəyanatı Ermənistanı yenə silkələdi

## Azərbaycan Prezidentinin növbəti dəfə ifşa etdiyi hərbi xuntaya qarşı erməni xalqı da etirazlara başladı

***Əvvəli 1-ci səh.***

Amma diqqətlə araşdırdıqda ortaya maraqlı mənzərə çıxır və bəlli olur ki, keçmiş hərbi xuntaya qarşı hücuma keçənlərin böyük qismi elə sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyana bağlı olan insanlardır. Məhz bu xüsusda Ermənistanda sosial şəbəkələrdə baş verənlərin təhlili həqiqətən də bu ölkədə böyük bir qütbləşmənin yarandığını üzə çıxarır. Belə vəziyyət Azərbaycanın, onun lideri İlham Əliyevin həm də informasiya müharibəsində Ermənistan üzərində inamlı qələbəsinin növbəti təsdiqidir.

Armen Minosyan adlı istifadəçinin "VKontakte" sosial şəbəkəsində Sarkisyan və Koçaryanın şəkillərini yanaşı paylaşaraq "Ermənistanı dərin böhrandan xilas edəcək şəxsiyyətlər" yazması çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib. Vazgen Papinyan adlı istifadəçinin bu fotoya şərhi çoxlu bəyənmə toplayıb: "Sənin dünyadan xəbərin yoxdur. Sən Ermənistanda yaşamırsan? Mətbuatı izləmirsən? Sarkisyan-Koçaryan hakimiyyətdə olduqları müddət ərzində biz ermənilər üçün nə edib? Yalançı vədlər, Qarabağ müharibəsinin yaratdığı problemlər. Bizim taleyimiz Tanrının ümidinə qalıb".

Naira Arçuruyan adlı "Facebook" istifadəçisi isə səhifəsində maraqlı paylaşım edib. O, İlham Əliyev və Paşinyanın şəkillərini paylaşaraq yazır ki, İlham Əliyev faktiki olaraq Ermənistanı əzir: "Amma biz buna cavab verə bilmirik. İlham Əliyev bəyan edir ki, Ermənistan Qarabağ məsələsində yenidən iddia irəli sürərsə, daha ağır vəziyyətə düşəcək. Əslində, bu belədir".

Barseq Alaverdiyan adlı biri "Instagram"da Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi xəbərə maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev Bakıdan, Qarabağdan Paşinyana, Sarkisyana, Koçaryana od püskürür, bizimkilər isə hakimiyyəti qorumağın və hakimiyyətə gəlməyin yollarını axtarırlar".

### Hansısa təxribat olarsa, ona qarşı dəmir yumruq qaçılmaz olacaq

Müharibədən əvvəlki dövrlərdə Azərbaycan həmişə danışıqlar prosesində ədalətli, prinsipial və beynəlxalq hüquqa əsaslanan mövqe nümayiş etdirib. Bu dəyişməz mövqeyi Prezident İlham Əliyev xarici ölkələrə səfərlərində, eləcə də ölkəmizə gələn nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin rəhbərləri ilə görüşlərdə dəfələrlə diqqətə çatdırıb.

İşğal faktı ilə barışmayacağını qətiyyətlə bəyan edən Azərbaycan rəhbəri danışıqların sonadək nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atılacağını gizlətmirdi. Ermənistanın təcavüzkar dövlət olmasına, işğalçılıq siyasəti yürütməsinə açıq-aşkar beynəlxalq təşkilatlar səviyyəsində göz yumulurdu. Bütün yazılanlar kağız üzərində qalmaqda davam edirdi.

Odur ki, 44 günlük müharibədə dəmir yumruq Ermənistana tarixinin ən böyük məğlubiyyətini yaşatdı. Ermənistan rəhbərliyi bundan sonra hansısa bir təxribata cəhd göstərərsə, Yerevan üçün İkinci Vətən müharibəsi dərslərinin təkrarlanması qaçılmaz olacaq. Məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev deyib ki, buna görə də hər şey Ermənistan rəhbərliyinin və Ermənistan iqtidarının hansı siyasəti seçəcəyindən asılı olacaq. Dövlət başçısı vurğulayıb ki, bizim siyasətimiz həm müharibə dövründə, həm müharibədən sonra birmənalıdır: *"Mən bu siyasəti qısaca və dürüst ifadə edərək bu gün də deyirəm ki, bizim hədəfimiz sülhdür. Müharibə bizə lazım deyildi. Bu, məcburi tədbir idi. Bu tədbir bütün otuz illik səmərəsiz danışıqlardan daha effektli oldu. Beləliklə, hər şey Ermənistan rəhbərliyinin müasir reallıqlara düzgün qiymət verməsindən, düzgün nəticə çıxarmasından və revanşist cəhdlərin istisna edilməsindən asılı olacaq. Biz bütün olanları izləyirik, daha da diqqətlə izləyəcəyik".*

Göründüyü kimi, indi seçim qarşı tərəfindir. Ermənistan rəhbərliyi bundan əvvəl iqtidarda olanların siyasətini davam etdirsə, onda Ordumuz tərəfindən daha sərt zərbələrə məruz qalacaq. Bu, Yerevan üçün həm də əlavə yeni problemlər deməkdir.

### Prezident hərbi xuntanı dəstəklədi

Dünən axşam Ermənistan prezidenti Armen Sarkisyan öz konstitusiya səlahiyyətləri çərçivəsində baş qərargah rəisi Onik Qasparyanın vəzifəsindən azad edilməsi haqqında qərarı baş nazir Nikol Paşinyana geri qaytarıb. Fərman layihəsi hüquqşünaslar və ekspertlər tərəfindən araşdırılıb və bunun nəticəsində onun konstitusiyaya zidd olduğu qərara alınıb.

"Bir daha təsdiq edirik ki, prezident heç bir siyasi gücə tərəf durmur. O, qərarı ancaq dövlət və ümummilli mənafeləri əsas tutaraq qəbul edib. Şübhəsiz, silahlı qüvvələr siyasi məsələlərdə bitərəfliyi qoruyub saxlamalıdır" - Armen Sarkisyanın mətbuat xidmətinin məlumatında deyilir. Ermənistan prezidenti qeyd edib ki, yaranmış vəziyyət tez-tez kadr dəyişiklikləri ilə həll oluna bilməz.

İndi baş nazir öz qərarını geri götürməsə və yenidən prezidentin imzalanmasına göndərərsə, sonuncu sənədin Ermənistanın əsas qanununa uyğunluğunu müəyyən etmək üçün konstitusiya məhkəməsinə müraciət edə bilər.

Nikol Paşinyan isə silahlı qüvvələrin baş qərargah rəisinin vəzifəsindən çıxarılması haqqında təqdimatı növbəti dəfə ölkə prezidentinə göndərib. O, özünün "Facebook" səhifəsində yazıb ki, prezident baş nazir aparatına baş qərargah rəisinin vəzifəsindən çıxarılması haqqında təklifi geri göndərmək barədə qərar qəbul etdi: "Bu addım yaranmış vəziyyətin həllinə imkan yaratmır. Mən sənədin lazımi qaydada imzalanacağını gözləməklə yenidən baş qərargah rəisinin vəzifəsindən çıxarılması haqqında təklifi prezidentə göndərirəm".

Beləliklə, Ermənistanda siyasi gərginlik hər ötən günü daha da dərinləşir. Görünən odur ki, işğal siyasətinin qurbanı olan Ermənistan sonu görünməyən siyasi xaos içərisindədir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Avropa Azərbaycanlıları Konqresinin Xocalı soyqırımına həsr olunan onlayn konfransı keçirilib

"ZOOM" platforması ilə Avropa Azərbaycanlıları Konqresinin Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunan onlayn konfransı keçirilib.




AZƏRTAC xəbər verir ki, Avropa Azərbaycanlıları Konqresinin prezidenti Sahil Qasımovun moderatorluğu ilə keçən konfransın işində təşkilatın idarə heyətinin üzvləri, həmçinin dəvət edilmiş diplomatlar, ekspertlər, diaspor fəalları iştirak ediblər.

Erməni hərbi qüvvələrinin törətdiyi Xocalı soyqırımının və digər qanlı cinayətlərin günahsız qurbanlarının və 2020-ci il Vətən müharibəsində canlarını qurban verən şanlı şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tanınmış ictimai xadimlər, Milli Məclisin deputatları, Azərbaycanın xarici ölkələrdəki diplomatik missiyalarının yüksəkvəzifəli əməkdaşları, Avropada Azərbaycan diaspor təşkilatlarının rəhbərləri - Qənirə Paşayeva, Ramin Məmmədov, Musa Qasımlı, Fikrət Axundov, Eldar Bayramov, Qüdsi Osmanov, İlham İsmayılov, Sabir Rüstəmxanlı, Tənzilə Rüstəmxanlı, Arzu Oqtay, Natiq Bağırov, Yaşar Milnits, Nadir Hollenbrand, Cavanşir Feyziyev, Elman Nəsirov, Vaqif Seyidbayev konfransda çıxış ediblər. Onlar dövlətimizin müasir tarixində Azərbaycan Ordusunun bu yaxınlarda Vətən müharibəsindəki möhtəşəm qələbəsinin rolunu qeyd ediblər. Vurğulanıb ki, ermənilər Xocalıda və digər yaşayış yerlərində törətdikləri cinayət əməllərinə görə döyüş meydanında layiqli cavablarını aldılar.

Çıxış edənlər diaspor təşkilatlarının regionun tarixi və müasir reallıqları barədə dünya ictimaiyyətinin məlumatlandırılması üzrə bundan sonrakı fəaliyyət planını müəyyən ediblər.

# Haaqa şəhərində Xocalı şəhidlərinin xatirəsinə abidə ucaldılıb





Niderland Krallığında fəaliyyət göstərən Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin təşkilatçılığı ilə Haaqa şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidənin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın Niderlanddakı səfiri Fikrət Axundov, Türkiyənin Niderlanddakı səfiri Şaban Dişli, Niderland parlamentində Denk partiyasını təmsil edən millət vəkili Selcuk Öztürk, Haaqa məzarlığının rəhbəri Linda Jansen, Avropadakı müxtəlif diaspor təşkilatlarının rəhbərləri, Azərbaycan və Türkiyə icmasının nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin sədri İlhan Aşkının çıxışından sonra abidənin açılışı olub, ətrafına əklil qoyulub və gül dəstələri düzülüb. Mərasim iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Məzarlığın toplantı zalında davam etdirilən tədbirdə Fikrət Axundov, Şaban Dişli, İlhan Aşkın, Linda Jansen, "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri Maisə Ağamirzəyeva və başqaları çıxış ediblər. Natiqlər erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımının bəşəriyyətin faciəsi olduğunu və onun dəhşətlərinin heç vaxt unudulmayacağını bildiriblər. Soyqırımının başqa dövlətlər tərəfindən rəsmi olaraq tanınmasına və müqəssirlərin cinayət məsuliyyətinə cəlb edilməsinə nail olmağın vacibliyi vurğulanıb.

# Ukrayna gəncləri "Xocalıya ədalət!" aksiyası keçiriblər

Ukrayna gəncləri sosial şəbəkələrdə "Xocalıya ədalət!" aksiyası keçiriblər.







AZƏRTAC xəbər verir ki, aksiyadan məqsəd Azərbaycan xalqının tarixindəki faciəli səhifə, Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlıların məruz qaldığı etnik təmizləmə barədə ukraynalıları məlumatlandırmaqdır.

Aksiyanın təşəbbüskarı, ukraynalı fəal və ictimai xadim Marina Qonçaruk Dağlıq Qarabağ münaqişəsinə həsr olunan layihələrdə ukraynalı gənclərin artıq bir neçə ildir ki, iştirak etdiyini vurğulayıb. O deyib: "Xocalı qətliamı barədə tədbirlər Ukraynada hər il keçirilir, ukraynalı gənclər də məruzələr, çıxışlar hazırlayır, Xocalı soyqırımının qurbanlarının xatirəsinə şeirlər yazırlar. Tələbələr öz universitetlərində divar qəzetləri hazırlayırlar. Bu, çox mühümdür ki, Ukrayna gəncləri tarixi həqiqətlər barədə yaxşı məlumatlandırılıb və bu reallıqların Ukrayna cəmiyyətinə çatdırılmasında iştirak edirlər".

Tələbə Darya Ponomarenko deyib: "Biz ədalətin və ümumbəşəri dəyərlərin tərəfindəyik. Biz Azərbaycan xalqının dərdinə şərik olur və bu vəhşi cinayəti törədənlərin cəzalandırılmasına çağırırıq".

Roman Popov bildirib: "Bu cür aksiyalar etnik zəmində törədilən cinayətlərin nə dərəcədə dəhşətli olmasını xatırlatmağa imkan verir. Belə soyqırımların gələcəkdə bir daha təkrarlanmaması üçün bütün səylərimizi səfərbər etməliyik".

David Qogiya vurğulayıb: "Xocalı faciəsi bizə xatırladır ki, belə cinayətləri törədə bilən insanlar hələ də mövcuddur. Biz əlimizdən gələni etməliyik ki, daha çox insan etnik təmizləmələri fəal və açıq şəkildə pisləsin və cinayətkarların cəzalandırılmasına səsləsin".

# Yaponiya portalı ermənilərin Azərbaycan torpaqlarında törətdikləri dağıntılar barədə videoreportaj yayıb







Yaponiyanın "fnn.jp" portalı ermənilərin 30 ilə yaxın bir dövrdə işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdikləri dağıntılar barədə videoreportaj yayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, reportajda portalın müxbirinin Azərbaycanın işğal altında olmuş şəhər və kəndlərində ermənilər tərəfindən törədilən vandalizm aktları barədə geniş məlumatı əksini tapıb. Reportajın əvvəlində münaqişənin tarixi barədə məlumat verən müxbir ötən ilin sentyabr-noyabr ayları ərzində davam etmiş müharibədən bəhs edir. Münaqişənin kökündə Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarının dayandığı vurğulanır.

Azad edilmiş şəhər və kəndlərdə ermənilərin bütün tikililəri dağıtdığı, evlərin qapı-pəncərələrini, damlarını sökərək apardığı, yaşayış və sosial obyektləri yandırdığı yapon tamaşaçılara təqdim olunur.

Qeyd edilir ki, azad edilmiş ərazilərə gələn azərbaycanlılar burada yalnız dağıdılmış və yandırılmış yaşayış məskənləri ilə qarşılaşırlar. Ermənilər yalnız evləri yandırmaqla kifayətlənməyib, buradakı qiymətli ağacları da kəsib aparıblar. Həmçinin ermənilər tərəfindən basdırılmış minaların xəritələrinin Azərbaycan tərəfinə verilməməsi ərazidə hərəkətə ciddi təhlükə yaradır.

Reportajda hazırda Ermənistanda baş verən hadisələrə də toxunulur, ölkədə siyasi sabitliyin hələ də gərgin qaldığı, hakimiyyət uğrunda mübarizənin qızışdığı qeyd edilir.




# XX əsrin faciəsi - Xocalı soyqırımı



# Qisasın alındı, Xocalı!

1992-ci ilin 26 fevralı...

Təqvim vərəqlərimizdə qara dairəyə alınmış o faciəvi tarix. Hüznlə, kədərlə, qəzəb hissi ilə andığımız o dəhşətli zaman...

Xocalı sakinlərinin dünyada misli görünməmiş soyqırımına məruz qaldıqları o məşum gün...

İllərlə 1992-ci il fevralın 26-da Xocalıda soydaşlarımızın başına gətirilən faciənin ağrı-acısı ilə yaşadıq, ürəyimiz dərddən-ələmdən yara bağladı. O günahsız insanlara, yaşlılara, uşaqlara, qızlara, gəlinlərə, cavanlara tutulan divana yandıq, yaxıldıq...

Yer üzündən silinən ailələrin müsibətinə, qundaqda ömrü qırılan körpələrin yarımçıq taleyinə ağladıq, gözlərimiz qan-yaş tökdü. Və qəlbimizdə alışan qisas alovu ilə Xocalıda şəhid olan, əsir götürülərək minbir işgəncəyə məruz qalan soydaşlarımızın intiqamını alacağımıza and içdik...

And içdik ki, qisasları qiyamətə qalmayacaq.

Və 2020-ci ilin Vətən müharibəsi həm də şəhidlərimiz qarşısında verdiyimiz o andın yerinə yetdiyi savaş kimi Azərbaycan tarixinə həkk olundu...

Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin müjdələdiyi 10 Noyabr - Qələbə Günündə insanlar əllərində al qırmızı qərənfillər Şəhidlər xiyabanına, Xocalı soyqırımının daşlaşmış əksi - "Ana harayı" abidəsinə, bölgələrimizdəki şəhid məzarlarına ziyarətə axışaraq "Ruhunuz şad olsun, Vətənimin şəhid övladları, artıq uğrunda can verdiyiniz ana torpağımız Qarabağ azadlığa qovuşub, Xocalıda qətl edilən günahsız insanların qanı yerdə qalmayıb..." dedilər.

Xocalı soyqırımının 29-cu ildönümünü Xocalının qisasının alındığı gün kimi yad edirik. Soydaşlarımızın başına gətirilən bu müsibəti hayqırır, Xocalı faciəsində yaşananları bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırırıq. Çatdırırıq ki, qatil xislətli ermənilərin əsl üzünə yaxından bələd olsunlar, bu quzu cildinə girmiş insan cəlladlarının iyrənc əməllərinə bir daha şahidlik etsinlər.

## O gecə göydən Xocalıya qan yağmışdı

1992-ci il fevralın 25-dən 26-na keçən gecə göydən Xocalıya qar əvəzinə qan yağmışdı. Qarqar çayından su əvəzinə qan axmışdı. Ərşə dirənən insan fəryadı küçələrdə ac qurd kimi ulayan çovğunun səsini batırmışdı. O müsibətli gecədə gözləri önündə balası süngüyə keçən analar havalanmışdı, ata-anasının vəhşicəsinə öldürüldüyünə şahidlik edən balaların bağrı çatlamışdı. Canlarını götürüb bu zülmdən qaçmaq istəyən xocalılılar şaxtanın qılınc kimi doğradığı qarlı havada ayaqyalın, başıaçıq üz tutmuşdular çöllərə, düzlərə, meşələrə. Bu günahsız insanlara təbiət rəhm etsə belə faşist xislətli erməni cəlladları aman verməmişdi... Dörd bir tərəfdən Xocalını mühasirəyə alıb, bütün bəndi-bərəni kəsmişdilər ki, bir nəfər belə canını qurtara bilməsin. Ya vəhşicəsinə öldürülsün, ya da əsir götürülərək olmazın işgəncələrə məruz qalsınlar...

Bəs nə idi bu zavallı insanların günahı, nə idi erməni quldurlarının bu qanlı əməllərinin məqsədi?

"Xocalı hadisələrinədək azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu anlayışa (stereotipə) son qoyduq".

Bu sitat britaniyalı jurnalist Tomas de Vaalın 2000-ci ildə ovaxtkı Ermənistan prezidenti, müharibə cinayətkarı Serj Sarkisyandan aldığı müsahibədən kiçik bir hissədir. "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına isə cavab olaraq S.Sarkisyan heç bir vicdan əzabı çəkmədən kinlə demişdi: "Heç bir peşmanlığım yoxdur. Bu cür sarsıntılar minlərlə insanın həyatı bahasına başa gəlsə də, zəruridir".

Bəli, ermənilərin Xocalı soyqırımını nə üçün törətdikləri bax elə bu bir neçə qandonduran cümlə ilə



Sarkisyan tərəfindən təkzibolunmaz şəkildə etiraf olunub.

Bu vəhşi məxluqlar Xocalı soyırımını törətməklə insanların ürəyinə qorxu salmaq və bununla da Azərbaycan ərazilərinin sonrakı işğalını və etnik təmizlənməsini özləri üçün daha asan hala gətirmək niyyətini güdmüşdülər.

## Xocalı soyqırımına uzanan qətliam yolu

O da faktdır ki, hələ Xocalı soyqırımına qədər Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdi. 1992-ci il fevralın 17-də, Xocalı soyqırımından cəmi bir neçə gün əvvəl Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalmışdı.

Xankəndidən 10 kilometr cənubşərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji mövqedə yerləşən və Dağlıq Qarabağın yeganə hava limanının olduğu Xocalıya sonuncu helikopter 1992-ci il yanvarın 28-də enmişdi. Yanvarın 2-dən etibarən isə şəhərin elektrik enerjisi təchizatı dayandırılmışdı. Təcrid vəziyyətinə düşmüş xocalılılar belə bir şəraitdə ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayıb və müdafiə olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq isə Xocalı Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə alınmışdı. Dinc sakinlərin dəstə halında və ya təklikdə mühasirədən çıxmaq üçün göstərdiyi bütün cəhdlərin qarşısı alınmışdı.

Xocalı hər gün toplardan, ağır texnikadan atəşə, erməni dəstələrinin silahlı həmlələrinə məruz qalırdı. 1992-ci il fevralın 18-də artıq Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu. Şəhərdə vəziyyət getdikcə ağırlaşırdı. Buna baxmayaraq, ovaxtkı respublika rəhbərliyi Xocalının xilası üçün heç bir iş görmürdü. Dörd bir tərəfdən mühasirədə olan köməksiz Xocalı düşmənlə təkbaşına mübarizə aparmaq məcburiyyətində qalmışdı.

## "Xocalıdakı vəhşiliklərə heç nə ilə haqq qazandırmaq olmaz"

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalıya hücum etdi. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit raketlərdən açılan 2 saatlıq atəşdən sonra başlanmışdı. Xocalıya üç istiqamətdən hücum edildiyindən əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdu ki, bu bir tələ, məkrli hiylə imiş. Naxçivanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar güllələbarana tutulmuşdular. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçivanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdi.

Erməni vandalları qaçıb canlarını qurtarmaq istəyən silahsız mülki insanları güllələyir, ələ keçirdiklərini vəhşicəsinə qətlə yetirirdilər. İnsanlara dəhşətli işgəncələr verir, diri-diri yandırır, baş dərisini soyur, qulaqlarını və digər orqanlarını kəsir, gözlərini çıxarır, hamilə qadınların qarınlarını deşir və sözlə ifadə edilməsi çətin olan digər vəhşiliklər törədirdilər.

14 mart 1992-ci ildə "Le Mond" qəzeti (Paris) yazırdı: "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu reallıqdır".

İngiltərənin "Fant men nyus" teleşirkətinin əməkdaşı (hadisə yerində olmuşdur) R.Patrik isə xocalılılara qarşı törədilən qətliamdan dəhşətə gələrək demişdir: "Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz".

## "Gözümün qabağında 4 məshəti türkünün, 3 qonşumun başını erməni quldurunun qəbri üstündə kəsdilər"

Xocalılıların müsibəti 26 fevral günündə yaşadıqları ilə bitməmişdi. Qarlı havada günlərlə meşələrdə ac-susuz, yaralı halda qalaraq vəhşi düşmənin əlindən can qurtarmaq istəmişdilər. Lakin onların çox az qisminə bu, nəsib olmuşdu. Çoxları donmuş, bəziləri yarasındakı qanaxmadan vəfat etmiş, ya da düşmən tərəfindən aşkarlanaraq əsir götürülmüşdü. Və əsir götürülənlərin başına günlərlə olmazın müsibətlər gətirmişdilər.

Gözlərinə ömürlük həkk olunmuş insanlığa sığmayan vəhşiliklərin dəhşətli mənzərəsini, ürəklərində yara bağlamış faciəvi günlərin ağrıacısını daşıyan əsir şahidlər sonradan ermənilərin o qandonduran əməllərindən dəhşətlə danışırdılar:

Səriyyə Talıbovanın gözünün qabağında 4 məshəti türkünün, 3 qonşusunun başını erməni quldurunun qəbri üstündə kəsmişdilər...

8 yaşlı Xatirə Orucovanın gözü qarşısında atasını, anasını, 6 yaşlı bacısını güllələyib qətlə yetirmişdilər. Güllə özünə də dəymişdi.

Sənan Abdullayev yaşadığı o dəhşəti məqamları belə dilə gətirmişdi: "Bir gün meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana gətirdilər. Anam, atam, 16 yaşlı bacım meşədə öldü. Ruslar, ermənilər, sırğalı zəncilər uşaqların gözü qarşısında mənə işgəncələr verirdilər. Sonra bizi içərisinə su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaq üçün uşaqları bir gün əlimdə saxlamışam..."

Bunlar erməni faşizminin qurbanına çevrilmiş sadəcə bir neçə xocalılının dedikləridir. Soydaşlarımızın başına gətirilən bu cür tükürpədici faktlar minlərlədir...

Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırov Xocalı soyqırımı zamanı 1003 nəfəri əsirlikdən azad etməsəydi, bəlkə də bu günahsız insanların biri də erməni cəlladlarının əlindən sağ qurtula bilməyəcəkdi...

## "Xocalıya ədalət!"

Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər Heydər Əliyev hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir.

"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" deyən Prezident İlham Əliyevin birbaşa səyi nəticəsində bu gün dünyanın bir sıra dövlətləri Xocalı qətliamını əsl soyqırımı kimi tanıyır və qəbul edir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu faciənin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində Heydər Əliyev Fondunun gördüyü işləri də xüsusi qeyd etmək lazımdır.

Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası dünya ölkələrinin erməni qəsbkarlarının törətdiyi insanlığa sığmayan Xocalı soyqırımı haqqında daha dolğun məlumatlandırılmasında müstəsna rol oynayır.

## Qəhrəman oğullar döyüş meydanında Xocalı qatillərini məhv etdilər

Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, şanlı Azərbaycan Ordusunun rəşadəti sayəsində işğal altında olan torpaqlarımız azadlığa qovuşdu, Xocalıda soyqırımına məruz qalanların qisası döyüş meydanında alındı.

44 günlük Vətən savaşında qəhrəman oğullarımız Xocalı qatillərini, insan cəlladlarını məhv etməklə günahsız soydaşlarımızın qanını yerdə qoymadılar. Bununla da həmin şəhidlərin yaxınlarının, eləcə də bütün Azərbaycan xalqının ürəyinə su çilədilər.

Gücləri yalnız əliyalın insanlara çatan mənfur ermənilər Xocalı soyqırımını törətməklə Azərbaycan xalqının gözünü qorxutmaq istəsələr də, buna nail ola bilmədilər. Bu faciə hər birimizi dərindən yaraladı, amma milli iradəmizi, azadlıq eşqimizi, işğalla barışmaz mövqeyimizi sarsıda bilmədi. Vətənimizin mərd oğulları döyüş meydanında Xocalı cəlladlarını məhv etdilər, faşist xislətli ermənilərə heç zaman yadlarından çıxarmayacaqları dərs verdilər.

1992-ci il fevralın 26-da Xocalıda soyqırımına məruz qalan soydaşlarımız Azərbaycanın ərazi bütövlüyü, xalqımızın milli azadlıq uğrunda apardığı haqq mübarizəsinin şəhidləridir. Onların əziz xatirəsini ehtiramla yad edir, ruhları qarşısında baş əyirik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





# Xocalı soyqırımı ilə bağlı GDU-da onlayn tədbir keçirildi



Tədbir iştirakçıları əvvəlcə Vətənimizin azadlığı uğrunda canlarından keçmiş igid həmvətənlərimizin xatirəsini ehtiramla yad etmişlər. Sonra Gəncə Dövlət Universitetinin (GDU) prorektoru Gülsüm Fətəliyeva çıxış edərək Azərbaycan xalqının tarixinə qanla yazılmış Xocalı faciəsində ermənilərin törətdikləri vəhşilikləri faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Bildirmişdir ki, qanlı olaydan 29 il ötsə də, Azərbaycan xalqı o faciəli günləri heç vaxt unutmur: "Çünki ermənilərin keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə törətdikləri qırğının acı nəticələri bu gün də qaysaq bağlamış yaraları göynədir. Erməni vandallarının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda həyata keçirdikləri soyqırımı bəşəriyyətə və insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət olsa da, təəssüflər olsun ki, bəzi beynəlxalq təşkilatlar hələ də bu qanlı olaya göz yumurlar. Lakin Xocalı haqqında həqiqətlərin üzə çıxarılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımlar atır. Elə 44 günlük Vətən müharibəsində qazandığımız uğurlar da bunu deməyə əsas verir ki, Azərbaycan tökülən qanı heç vaxt yerdə qoymur. Qarabağ uğrunda gedən müharibədə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz öz sözünü bütün dünyaya dedi. Xalqımız dəmir yumruq kimi Prezidentimizin ətrafında birləşərək əzəli torpağımız olan Qarabağı düşmən tapdağından azad etdi".

Tədbirdə universitetin Riyaziyyat-informatika fakültəsinin dekanı Oruc Hüseynov, Riyazi analiz kafedrasının baş müəllimi Nurəngiz Bəşirova və başqaları çıxış edərək Xocalı qətliamının insanlığa qarşı yönəlmiş amansız cinayət olduğunu qeyd etmiş, erməni millətçilərinin xalqımıza qarşı zaman-zaman həyata keçirdikləri soyqırımı siyasətindən danışmışlar. Qeyd etmişlər ki, 29 il əvvəl Azərbaycanın Xocalı şəhərində törədilən faciə erməni ekstremistlərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun illər davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir.

Tədbir tələbələrin hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bu soyqırımı unudulmayacaq



Xocalı məktəbliləri arasında "Bu qan yerdə qalmaz!" mövzusunda keçirilən yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Gəncə şəhərinin ərazisində salınmış 600 ailəlik qəsəbədə Xocalı Rayon İcra Hakimiyyətinin dəstəyi, "Xocalının səsi" qəzetinin təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəbləri arasında "Qələmimizi süngüyə çevirək" devizi altında "Bu qan yerdə qalmaz!" yazı müsabiqəsi keçirilib. Qaliblərin mükafatlandırılması tədbirində respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin və Xocalı soyqırımı qurbanlarının ruhu bir dəqiqəlik sükutla yad edilib.

"Xocalının səsi" qəzetinin redaktoru Qalib Bəyməmmədoğlu bildirib ki, rəhbərlik etdiyi mətbu orqan "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasının şüarı altında işıq üzü görür: "Qəzetdə davamlı olaraq Xocalı soyqırımı şahidlərindən, erməni əsirliyində olmuş insanlardan alınan müsahibələr dərc edilir. Bu tədbirin keçirilməsində məqsəd "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasına dəstək vermək və Xocalı soyqırımının gənc nəsil tərəfindən unudulmamasıdır".

Müsabiqənin təşkili və keçirilməsində də məqsəd məhz Xocalıda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vandallarının törətdiyi amansızlıqların, vəhşiliklərin qan yaddaşından silinməməsi, bəşəriyyətə təhlükə olan belə qəddarlığa qarşı mübarizəyə ciddi ehtiyac olduğunu xatırlatmaqdır.

Xocalı rayonunun 12 ümumtəhsil məktəbindən müsabiqəyə 100-ə qədər yazı göndərildiyi qeyd edilib. Məktəblilərin bu müsabiqədə fəal iştirak etdiyi vurğulanıb.

Tədbirin rəsmi hissəsindən sonra şagirdlər tərəfindən bədii kompozisiya nümayiş etdirilib. Müsabiqənin qaliblərinə Xocalı soyqırımından bəhs edən kitab, Azərbaycan bayrağı, suvenir və fəxri fərmanlar təqdim edilib.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



# SUMQAYIT TƏXRİBATI

## - erməni millətçilərinin çirkin əməli



# İğtişaşların ermənilər tərəfindən törədilməsi sübuta yetirilmişdir

Sumqayıtda ermənilərin öncədən planlaşdırdığı qanlı hadisələrdən bizi 33 illik zaman kəsiyi ayırır. Geriyə baxanda həmin hadisələrin zamanında görünməyən tərəfləri aydınlaşır, ermənilərin Sumqayıtda törətmək istədikləri növbəti "genosid"in bir çox "çılpaqlığı" üzə çıxır. Erməni təbliğat maşını dünyaya Sumqayıt hadisələrini onlara qarşı törədilən terror kimi sırımaqda israrlıdır. İstintaq proseslərində bu terrorun məhz ermənilər tərəfindən törədilməsi sübuta yetirilib. Dünyanın hər hansı bir nöqtəsində yaşayan ermənilər yaxşı bilirlər ki, törədilən hadisələr özlərinin əməlidir. Yalan və iftiralarla "zəngin", "yazıq millət" kimi tarixi olan ermənilər həmişə qarşılarına qoyduqları məkrli məqsədə yetmək üçün hər cür vəhşilikdən, terrordan, insanlığa sığmayan qanlı cinayətlərdən, hətta öz millətlərinin belə qanını tökməkdən çəkinməyiblər.

### Mitinqlərdə ermənilər təlimatlandırılır

1988-ci ilin fevralında Xankəndidə erməni millətçiləri kütləvi mitinqlər keçirirdi. Onlar SSRİ və Ermənistan SSR rəhbərliyindən tələb edirdilər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb, Ermənistanın tərkibinə qatılsın. Mitinqlərdə azərbaycanlıların "cinayətlərindən" söz açır, əl altında qaldıqlarını iddia edirdilər. Dağlıq Qarabağın ətraf rayonlarından ermənilər mitinqlərə axışır, oradan təlimatlanırdılar. Az bir zamanda buna adekvat cavab verəcək yer də müəyyənləşdirilir. Həmin hadisələrdən sonra belə bir fikir dolaşır ki, ermənilər öncə Gəncəni iğtişaşların mərkəzi kimi qəbul ediblər. Amma sonradan əslən ermənistanlıların daha çox yaşadığı Sumqayıt seçilir.

Həmin il 39 yaşını qeyd etməyə hazırlaşan Sumqayıtda zəhmətkeşlər bu bayrama hazırlaşırdılar. Onu quranlar sovetlər birliyinin hər yerindən bura gələn gənclər idi. Yaranışından diqqəti cəlb edən bu şəhər beynəlmiləl xüsusiyyətləri ilə də fərqlənirdi. Dünyanın müxtəlif yerində yaşayan sumqayıtlılar öz şəhərləri ilə fəxr edirdilər. Hətta əslən erməni olub Sumqayıtda doğulanlar belə bu şəhəri həmişə hörmətlə yad edirlər.

Vaxtilə "dostluq" şəhəri adlanan, özündə 82 millətin və etnik qrupun nümayəndəsini birləşdirən, daşı daş üzərinə qoyub böyük bir şəhər salan, beynəlmiləl bir ailədə yaşayan insanlar 1988-ci il fevral ayının 28-dən 29-na keçən gecə bir qrup ekstremistin əli ilə Sumqayıtda qanlı aksiyanın törədilməsinə necə rəvac verə bilərdi? Hadisələrə təkan verən, təlimatlandıran, maddi vəsait ayıran qüvvələr kimlər idi? Vaxtilə bir parta arxasında əyləşib eyni dildən dərs keçənlər necə bir-birinə düşmən oldu?!

Bütün bunları araşdırmaq və bu suallara dolğun cavab tapmaq o qədər də asan deyil. Hazırda ermənipərəst kütləvi informasiya vasitələri öz uydurma cızmaqaraları ilə indi də oxucuları çaşdırır, guya Sumqayıtda ermənilərə qarşı "genosid"in olmasını sübut etmək istəyirlər.

"Böyük Ermənistan" yaratmaq xülyasında olan Ermənistan rəhbərliyi, millətçi qüvvələr, daşnak partiyasının fəalları, kəşfiyyat orqanları Azərbaycan-Ermənistan münasibətlərini gərginləşdirməklə separatizmə geniş meydan açırdılar. Buna nail olmaq üçün Ermənistanın xüsusi xidmət orqanları və xaricdə yaşayan erməni lobbisinin ssenarisi əsasında Sumqayıtda qanlı aksiya törətdilər.

Bu həmin zaman idi ki, SSRİ aşkarlıq şəraitində bir çox problemləri bilərəkdən qabartmağa başlamışdı. Hakimiyyətdə təmsil olunan erməni diasporu hərəkətə keçmişdi. Aparılan müşahidələr və araşdırmalar göstərirdi ki, haqqında dəfələrlə yazılmış "tarixi unutqanlıq" adlanan sosial bəladan xilas olmaq son dərəcə çətin problemə çevrilmişdir. Bu problemə qarşı isə gərgin, ardıcıl və prinsipial təbliğat işi aparmaq, ermənilərin hiyləgər və məkrli siyasətlərini ifşa edərək, dünya ictimaiyyətinə çatdırmaq lazımdır.

### İğtişaşları idarə edən ermənilər

1988-ci ilin əvvəllərində böyük sovetlər imperiyası tənəzzülə uğramaqda idi. Batmaqda olan ittifaqın rəhbərləri vəziyyətdən çıxış yolunu sanki qanlı hadisələr törətməkdə görürdülər.

Artıq Sovet İttifaqını vahid partiya idarə edə bilmirdi. Sovet İttifaqının dağılmasında maraqlı olan güc mərkəzləri tərəfindən M.S.Qorbaçov hakimiyyətə gətirildi. Qorbaçovun isə siyasi məsələlər üzrə köməkçisi Şahnazaryan, iqtisadi məsələlər üzrə köməkçisi A.Aqanbekyan, Dövlət Plan Komitəsinin birinci müavini Sitaryan və yuxarı eşelonda vəzifələrə otuzdurulan yüzlərlə erməni böyük bir dövlətin xarici və daxili siyasətini maraq və ambisiyalarına uyğun asanlıqla istiqamətləndirə bilirdilər. Dövlətdə təmsil olunan bir şəxsin - Aqanbekyanın 1987-ci ildə Fransadakı məlum çıxışında Qarabağın Ermənistana verilməsi təklifi xarici diaspor nümayəndələri tərəfindən alqışlarla qarşılandı. Bundan sonra Qarabağda və Ermənistanda fasiləsiz mitinqlərə start verildi, həmin ərazilərdə yaşayan azərbaycanlılara qarşı təzyiqlər, hücumlar gücləndi. Beləcə qaçqınların ilk böyük dalğası Sumqayıtı silkələdi.

Öz doğma yurdlarında min illərlə yaşayan insanlar Sumqayıta pənah gətirdilər. Çünki ermənistanlı azərbaycanlıların çox hissəsinin Sumqayıtda qohum-əqrabası yaşayırdı. Eyni zamanda həmin dövrdə dolaşan fikirlərdən biri də qaçqınların Qarabağda yerləşdirilməsi idi. Bunun qarşısını almaq üçün növbəti bir saxta "genosid" aktı hazırlamaq iddiası ermənilər tərəfindən düşünüldü.

Separatçı "Qarabağ" və "Krunk" komitələri dünyanın hər yerində yaşayan ermənilərə müraciət qəbul edərək onları böyük Ermənistan arzularının reallaşacağı gün uğrunda mübarizəyə səsləyirdilər. Respublikamızın müxtəlif regionlarında yaşayan erməniləri uzun illərdən bəri gizlincə yığdıqları maliyyə bazalarından istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün ümumerməni hərəkatına qoşulmağa çağırırdılar.

Sumqayıt hadisələri ərəfəsində Ermənistandan və Dağlıq Qarabağdan Sumqayıt və Bakı şəhərlərinə çoxlu sayda milliyyətcə erməni olan şübhəli şəxslər gəlmiş, onların bir qismi mehmanxanalarda yığcam yerləşdirilmişdi. Azərbaycan dilini mükəmməl bilən bu qrup ermənilər şəhərin onlarda olan xəritəsi əsasında demək olar ki, bütün küçə və dövlət orqanlarını qeydiyyata almış, xüsusi terror planını hazırlamışlar. Şəhərdə gizlin fəaliyyət göstərən "Krunk" daşnak təşkilatının üzvləri ilə görüşən təxribatçı qrup erməni ailələrinin siyahısı əsasında niyyət və məramlarını bölüşmüşdü. Bir neçə gün ərzində planın əsas hərəkətverici qüvvələri də müəyyənləşdirilmişdi. Həmin şəxslər Sumqayıtda ermənilərin gur yaşadığı ərazilərdə çoxsaylı gizli görüşlər keçirmiş, onları gələcək hadisələrlə bağlı təlimatlandırmışdılar. 30 nəfərə yaxın olan bu "komanda" şəhərin dörd bir tərəfində yaşayan ermənilərin ünvanlarını hazırladıqdan sonra iğtişaşlar zamanı kiminlə necə hərəkət edəcəklərini də onlara anlatmışdılar.

Eyni zamanda həmin günlərdə şəhəri tərk edən imkanlı erməni ailələri hadisələr ərəfəsində bankda olan pullarını çıxardaraq özləri ilə aparmışdılar. Bəziləri şəhərin ticarət mərkəzində - univermaqda satılan qiymətli zinət əşyaları almışdılar. Onlar evlərinin bahalı mebellərini, bəziləri isə evlərini sata bilmişdilər. Təəssüf ki, bütün bunlar respublikamızın, sırf Sumqayıt hüquq mühafizə orqanlarının gözü qarşısında baş vermişdi. Çiyni müxtəlif ulduzlu milis (polis) işçilərinin gözü qarşısında erməni təxribatçıları onların soyuqqanlığına inanaraq öz "planlarının" təməlini "mükəmməl" hazırlamışdılar. Sumqayıtda baş vermiş kütləvi iğtişaşlardan dərhal sonra isə həmin qrup yoxa çıxmışdı. Bu da həmin hadisələrin Kremlin dəstəyi ilə ermənilərin törətdiyini bir daha sübuta yetirir.

### Saxta "genosid"in başlanğıcı

Beləcə fevralın 28-29-da Sumqayıtda ermənilərin növbəti "soyqırım"ları həyata keçirilməyə başlandı. Onlar hətta qətlə yetirəcəkləri adamların siyahısını şəhərdə talan törədəcək öz komitə üzvlərinə də paylamışdılar. Bir neçə gün əvvəl ermənilər yaşayan evlər ozamankı hüquq mühafizə orqanlarının gözləri qarşısında xüsusi adamlar tərəfindən işarələnmişdi. Beləliklə, fevralın 28-29-da Sumqayıtda iğtişaşlar törədirlir, ermənilər öz millətlərindən olan insanları qəsdən qətlə yetirir, lakin SSRİ-nin ovaxtkı hərbi prokuroru Katuşev Bakıda ola-ola baş verənlərin qarşısını almağa tələsmir. Ona hər dəqiqə məlumat verilsə də, bütün bunlara biganə yanaşır.



Zərərçəkən Mejlumyan istintaqda onu zorlamış Eduard Qriqoryanı göstərir.

Hadisələrin şahidi Tanrıvedi Hacıyev o günləri belə xatırlayır: "Fevralın 28-də səhər köhnə avtovağzalın yanında xeyli adam yığışmışdı. Biz işə gedirdik. Bizi aparacaq maşını gözləyirdik. Bir nəfər kütlənin içində dayanan maşının üstünə çıxıb danışmağa başladı. O, ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətləri sadalamağa başladı. Kütlə onun səsinə səs verdi və bir qədər sonra o qabaqda olmaqla yaxınlıqdakı mənzillərə doğru yürüdülər. Bizi işə aparan sürücü hamımızı maşına minməyə çağırdı. Sonradan bildik ki, demə bu adam erməni imiş.

Sumqayıtdakı kütləvi iğtişaşların əvvəlcədən təşkil olunmasını sübut edən faktlardan biri də talançıların hərəkət etdikləri marşrut üzrə yerləşdirilmiş naməlum şəxslər kütləvi iğtişaşlarda iştirak edənlərin bütün hərəkətlərinin videoçəkilişini aparmasıdır. Bu kadrlar Qərb ölkələrinin televiziya kanallarında operativ şəkildə göstərilmişdir. Şübhəsiz ki, çəkiliş aparan şəxslər talançıların planları haqqında əvvəlcədən məlumatlı olmuşdular. Çünki çəkilişləri aparanlar şəhəri tərk etdikdən sonra heç bir fakt lentə alınmamışdır. Bu da çəkilişlərin planlı olduğunu göstərirdi. Hadisələrdən sonra o da üzə çıxdı ki, Sumqayıtda qətlə yetirilənlərin demək olar ki, hamısı əslən Dağlıq Qarabağdan idilər.

Dövlət Təhlükəsizlik Komitəsinin açılmış arxiv materiallarından məlum olmuşdur ki, Dağlıq Qarabağ separatçılarının emissarları, SSRİ DTK-nın agentləri olan Sarkisyan, Osipov (Osipyan) və digərləri Sumqayıt hadisələrində fəal iştirak etmiş və həmin hadisələrdən dərhal sonra Orta Asiya respublikalarına ezam olunmuşdular. Bu agentlərin izləri sonradan Özbəkistan və Qırğızıstandakı hadisələr zamanı da aşkar olunmuşdur.

Hadisələr zamanı guya azərbaycanlılardan ölənlərin olmaması "fakt"ından istifadə edən ermənilər Sumqayıt hadisələri zamanı bir nəfər də olsun azərbaycanlının öldürülməməsi barədə iddialarını bu gün də davam etdirirlər. Əslində hadisələr zamanı 26 erməni, 6 azərbaycanlı öldürülmüşdü.

Bu faktdır ki, ittifaq mərkəzinin ermənipərəst mövqedən çıxış etməsi nəticəsində, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ermənistanın xüsusi xidmət orqanları və xaricdə yaşayan erməni lobbisinin ssenarisi əsasında Sumqayıtda qanlı aksiya törətdilmişdir.

### Hadisələr üzrə araşdırma

Sumqayıtda fevral ayının 28-də şəhərdə kütləvi iğtişaşlar, zorakılıq aktları başlandığı barədə məlumat daxil olan kimi Sumqayıt şəhərinin prokuroru, baş ədliyyə müşaviri İsmət Qayıbov cinayət işinin qaldırılması və istintaqa başlanılması barədə aşağıdakı məzmunda qərar qəbul etmişdi. İstintaqın ilkin mərhələsində 1050 nəfər şübhəli şəxs qismində tutulmuş, onlardan bir hissəsi inzibati, bir hissəsi isə cinayət məsuliyyətinə cəlb edilmişdir. 97 nəfər barəsində 55 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdi. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 183 nəfər barəsində, o cümlədən qəsdən adam öldürməyə görə 38 nəfər, zorlamaya görə isə təqsirləndirilən şəxs qismində cəlb edilmiş 42 nəfər barəsində əməllərində cinayət tərkibi və ya cinayət hadisəsi olmadığından işin icraatına xitam verilmişdi.

Hadisələrlə bağlı saxlanılanlar arasında müxtəlif millətlərdən olan adamlar - azərbaycanlılar, ermənilər, ruslar, yəhudilər və başqaları var idi. Sumqayıtda "xuliqanlıq" edənlərin arasında ermənilər tərəfindən satın alınmış ekstremist qruplar, cinayətkarlar, təxribatçılar, narkomanlar və spirtli içki düşkünləri var idi. 30 nəfər isə ümumiyyətlə heç bir ictimai-faydalı əməklə məşğul olmurdu.

İstintaq materiallarında göstərilir ki, 444 adam məhkəmə qarşısında cavab vermiş, onlardan 400 nəfəri 10-15 sutka təcridxanalarda saxlanılmışdı. Bir neçəsi uzunmüddətli həbs cəzasına, Əhməd İman oğlu Əhmədov isə ölüm cəzasına məhkum olunmuşdu. Məlumat üçün bildirək ki, Əhmədovun məsələsinə Moskvada tələsik baxılmış və onu Sumqayıtda baş verən hadisələrin "təşkilatçısı" kimi qələmə vermişdilər. 1988-ci ilin mart ayının 12-də SSRİ Baş Prokurorluğunun bir qrup nümayəndəsi Əhmədovun evinə basqın etmiş, onu vanna otağından yarıçılpaq vəziyyətdə sürükləyib həyətdəki maşına mindirmişlər.

1988-ci il oktyabr ayının 18-də SSRİ Ali Məhkəməsi Əhmədovun, Cəfərovun, İsmayılovun məhkəmə prosesinə başladı. Məhkəmə prosesi başlayan gün "Ostankino" telekanalının "Xəbərlər" proqramında bütün dünyaya xəbər verdilər ki, Sumqayıt hadisələrində "başkəsən" üç nəfərin məhkəmə işinə başlanılır. Ertəsi gün Moskvada nəşr olunan kütləvi informasiya vasitələri də bu barədə ictimaiyyətə məlumat çatdırdılar. Moskvada, SSRİ Ali Məhkəməsinin binasında Sumqayıtda kütləvi iğtişaşların baş verməsində müqəssir bilinən şəxslərin mühakiməsi başlandı. Müttəhimlər kürsüsündə əyləşən Ə.Əhmədov, T.İsmayılov, Q.Cəfərov talanlar, yanğınlar, qətllərlə nəticələnən kütləvi iğtişaşların təşkilində və yaxından iştirakında təqsirləndirilirdilər.

O dövrdə SSRİ Ali Məhkəməsinin sədri V.Terebilovun "Novoye vremya" jurnalında müsahibəsi çap olundu. Terebilov məhkəmə proseslərinə yuxarıların, xüsusilə SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi aparatından təzyiqlər olduğundan şikayətlənirdi. Və tələb edirdi ki, məhkəmə müstəqil olmalıdır. Terebilov daha sonra qeyd edirdi ki, hazırda SSRİ Ali Məhkəməsi Əhmədovun, Cəfərovun, İsmayılovun məhkəmə prosesinə baxır. Məhz yuxarıların təzyiqi nəticəsində məhkəmə heyəti obyektivliyini, humanizmini bir tərəfə qoyub, Əhmədovun timsalında, nəyin bahasına olursa-olsun, "təşkilatçı" obrazı yaratmaq niyyətinə düşüb.

"Moskovskiye novosti" qəzeti 1988-ci il noyabr ayının 20-də yazırdı: "Vəkillər belə hesab edirlər ki, işin istintaqı tam aparılmayıb. Cinayətlərin təşkilatçıları üzə çıxarılmayıb, baş verməsinin səbəbləri və şəraiti aşkar edilməyib". Buna baxmayaraq, 1988-ci il noyabr ayının 18-də SSRİ Ali Məhkəməsinin kollegiyası belə bir qərar çıxarır: "Cəfərovun və İsmayılovun cinayət materialları yenidən yoxlanılmaq üçün istintaqa qaytarılsın. Ə.Əhmədov isə ən ağır cəzaya layiq görülsün".

Məhkəmə prosesinə SSRİ Ali Məhkəməsinin üzvü R.K.Brize sədrlik edirdi. Məhkəmənin tərkibinə SSRİ Ali Məhkəməsinin xalq iclasçıları V.A.Kuznetsov və S.Smirnov daxil idilər. Dövlət ittihamçısı, SSRİ Baş prokurorunun köməkçisi D.Kozlovski idi.

### Gizlədilən həqiqət

Əslində hadisələrin təşkilatçısı 1959-cu il təvəllüdlü, əvvəllər 3 dəfə məhkum olunaraq üst-üstə 9 il 2 ay 13 gün azadlıqdan məhrumetmə cəzası çəkmiş qatı cinayətkar, milliyyətcə erməni olan "Paşa" ləqəbli Eduard Qriqoryan olub. O, Albert və Ernis adlı iki qardaşı ilə birlikdə camaata soyuq silah kimi istifadə olunan armatur parçaları paylayıblar.

Eduard Qriqoryan ətrafına topladığı özü kimi cinayətə meyilli qonşuları ilə ümumi dil taparaq, onlara spirtli içki və insanda aqressivlik yaradan xüsusi həblər paylayıb, quldurluq və soyğunçuluq etmək üçün yaxşı şansın yarandığını deyib və onları öz arxasınca erməni iddialarına qarşı keçirilən dinc mitinqin keçirildiyi meydana aparıb. Orada özünü Qafandan gəlmiş azərbaycanlı kimi təqdim edərək, ermənilərin guya Qafanda dinc azərbaycanlı əhalini qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini mitinq iştirakçılarına danışaraq, ermənilərdən intiqam almağa çağırıb, əlində burada yaşayan ermənilərin siyahısının və ünvanlarının olduğunu deyərək, ona qoşulmuş 100 nəfərə yaxın yeniyetmə və müxtəlif cinayətkar ünsürləri "Qarabağ bizimdir!", "Erməniləri qırın!" kimi şüar və çağırışlarla "Qarabağ" (komitəsi) və "Krunk" (cəmiyyəti) təşkilatlarına pul verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillərə istiqamətləndirmiş, talan və digər cinayətlərdə fəal iştirak etmiş və şəxsən 6 nəfər ermənini qətlə yetirmişdir.

O, hətta hadisələr zamanı Marina və Karina Mejlumyanlar adlı erməni qızlarını da zorlamışdı (İstintaq zamanı onlar E.Qriqoryan tərəfindən zorlandıqlarını etiraf etmişlər. Həmin qızlar onun insan yox, vəhşi olduğunu bildirmişlər).

Bütün bunlar məhkəmə istintaqı zamanı sübut olunsa da, SSRİ Prokurorluğu əsl həqiqəti ört-basdır etmişdi. Kütləvi iğtişaşlarda iştirak, zorlama, qətl, qarət, milli ədavətin qızışdırılması ittihamları ilə mühakimə olunan E.Qriyqoryana cəmi 12 il cəza verilmişdi.

6 nəfərin qətlində iştirak etmiş Eduard Qriqoryanın məsuliyyətdən azad edilməsi üçün erməni millətçi təşkilatçıları və xüsusi xidmət orqanları çox çalışıblar. Təsadüfi deyil ki, bu qədər cinayət törətməsinə baxmayaraq, Qriqoryan Ermənistana göndərilib, sonra da azadlığa buraxılıb. Həmin dövrdə "Novoye vremya" jurnalı, "Moskovskiye novosti" qəzeti və digər mətbu orqanları Sumqayıt hadisələri ilə bağlı öz səslərini qaldırsalar da, bir nəticə olmayıb. Yazılarda istintaqın düzgün aparılmadığı, cinayətin kim tərəfindən törədilməsinin aşkar edilmədiyi qeyd edilirdi.

Sumqayıt hadisləri də başvermə xüsusiyyətinə görə böyük bir terrorun başlanğıcı idi. Məhz bu saxta "genosid"dən sonra minlərlə azərbaycanlı qətlə yetirildi. Azərbaycanın 20 faizi işğal edildi.

Lakin bu, son deyildi. Ermənilər sonradan neçə-neçə belə terror aktları törətdilər, torpaqlarımızın bir hissəsini işğal etdilər. Amma işğalçılar, terroristlər, müharibə caniləri bir gün öz cəzalarını almalı idilər. Nəhayət, 44 günlük Vətən müharibəsi erməni faşistlərinin başını əzdi, onları məhv etdi. Müzəffər Ali Baş Komandan və qəhrəman ordumuz 44 gün ərzində ermənilərin şah damarını qırdı. Onların 30 il ərzində viranə qoyduqları Qarabağ azad edildi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Unudulması mümkün olmayan Xocalı faciəsi

Hər il olduğu kimi, bu il də Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, habelə hökumət üzvləri, ölkəmizdə fəaliyyətdə olan səfirliklərin, nazirlik, komitə, şirkət, idarə və təşkilatların, eləcə də ictimaiyyətin nümayəndələri, demək olar ki, bütün Azərbaycan xalqı Xocalı faciəsi qurbanlarını ehtiramla yad etdilər. Paytaxtın görməli yerində ucaldılan Xocalı faciəsi qurbanlarının "Ana harayı" kompleksinin önünə gül dəstələri qoydular, faciə qurbanlarının ruhuna dualar oxundu. Unudulması mümkün olmayan anım günü respublikamızın bütün bölgələrində dərin hüznlə qeyd edilmişdir.

200 il ərzində erməni millətçi-şovinistləri Azərbaycan xalqına qarşı davamlı olaraq etnik təmizləmə, soyqırımı həyata keçiriblər. Zaman-zaman xalqımız tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmişdir və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Arxiv sənədləri ilə sübuta yetirilmişdir ki, azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması, yurd yerlərinin zəbt edilməsi sovet dövründə də Ermənistan tərəfindən məqsədyönlü şəkildə davam etdirilmişdir. Əvvəlcə 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmiş, 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan sonuncu 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir. Bu azmış kimi, sovetlər ittifaqı dağılma ərəfəsində Ermənistan dövləti beynəlxalq hüquq normalarına zidd olaraq, himayədarlarına arxalanaraq Dağlıq Qarabağı özünə birləşdirmək istəyi ilə analoqu olmayan cinayət və vəhşiliklərə əl atdı. Ötən 29-30 il ərzində Dağlıq Qarabağda və respublikamızın kənd, qəsəbə və şəhərlərində, hətta ictimai nəqliyyatda belə saysız-hesabsız terror aktları törətdilər.

Dərin hüznlə xatırladığımız Xocalı soyqırımı aqressiv, cinayətkar və terrorçuluğu dövlət səviyyəsinə qaldırmış Ermənistan dövlətinin rəsmi siyasətinin nəticəsidir. Belə ki, 29 il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş sovetlər birliyinə məxsus 366-cı alayın köməyi ilə Xocalı şəhərinin dinc mülki əhalisinə təcavüz etmişdir. Bu zaman 613 nəfər dinc azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, 1275 nəfər dinc sakin əsir götürülmüşdür.

Ermənilər Xocalıya hücum zamanı "yandırılmış torpaq" taktikasını yeritdilər. Hücumdan əvvəl bir neçə saat ərzində şəhər toplar və zirehli texnikadan fasiləsiz atəşə tutuldu. O zaman Ermənistanın prezidenti L.Ter-Petrosyan erməni ordusuna müraciətlə deyirdi: "Siz ermənilər, düşməni öldürərkən ürəyiyumşaqlıq göstətməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir".

Sonralar əsir götürülmüş erməni əsgərlərinin dedikləri bu vəhşi xəttin həyata keçirildiyini bir daha təsdiq edir. Mixail Qazaryan (Hadrut rayonunun sakini) bildirirdi ki, "Mən müharibəyə getdiyimi başa düşürdüm, ancaq uşaqlara atəş açacağımı və hətta öldürəcəyimi ağlıma da gətirməzdim". Aşot Barxudaryan (Mehri rayonunun sakini) isə göstərirdi ki, "Adamlar qışqırır, ağlayırdılar, bizim yaralıları çıxarırdılar, azərbaycanlılar isə yolun ortasında qalmışdılar, tanklar, zirehli texnika, yük maşınları onların üzərindən keçib gedirdilər". Rantik Mirzoyan (İrəvan şəhərinin sakini) isə belə xatırlayırdı: "Burada mən bizimkilərin törətdikləri vəhşilikləri gördüm. Mən heç vaxt belə şey görməmişdim. Meyitlərin iyi hər yanı bürümüşdü. Hər yerdə meyitlər tökülüb qalmışdı".

Xocalı üzərinə hücuma, insanlığa sığmayan vəhşiliklərə mayor Seyran Ohanyan (sonradan o, Ermənistanın müdafiə naziri oldu), Yevgeni Nabokixin, Valeri Çitçyan və erməniəsilli 50-dən artıq zabit və praporşik rəhbərlik etmişdir. Həmin dövrdə Xocalıdan Ağdama gətirilmiş 181 meyit (130 kişi, 51 qadın, onlardan 13 uşaq) məhkəmə-tibbi ekspertizadan keçirilmişdir. Nəticədə müəyyən edilmişdir ki, 151 nəfər güllə, 20 nəfər qəlpə, 10 nəfər küt alətlərlə öldürülmüşdü, meyitlərin əksəriyyətinin baş dərisi soyulmuş, burunları, qulaqları və digər orqanları kəsilmişdi.

Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan isə bu kimi vandallıqlara rəğmən xarici jurnalistə müsahibəsində demişdir: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu stereotipi dağıtdıq. Məhz bu baş verdi".

Təəssüflər olsun ki, Xocalı faciəsindən 29 il keçməsinə baxmayaraq, bəzi tərəqqipərvər ölkələr bu soyqırımı hadisəsinə hüquqi qiymət versə də, bəziləri susdular və hələ də ikili mövqe nümayiş etdirirlər. Bu səbəbdən Xocalı faciəsini törədən cinayətkarlar indiyədək lazımi cəzalarını almamışlar. Halbuki cinayət baş verdiyi tarixdə Xocalı hadisəsi ABŞ-da "İlin ən böyük faciəsi " adlandırılmış, dünyanın aparıcı KİV-i onu geniş şəkildə işıqlandırmışdır. 1993-cü ildən Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərmişdir. Ulu Öndər o zaman mətbuata açıqlamasında bildirmişdi: "Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur. Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur". O böyük şəxsiyyətin təşəbbüsü ilə 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı faciəsini soyqırımı kimi qiymətləndirmiş və beynəlxalq ictimaiyyətə, dünya dövlətlərinə müraciətlər qəbul etmişdir. Ulu Öndər Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması üçün ATƏT, AŞ, BMT və digər bu kimi beynəlxalq qurumlara müraciətlər, məktublar və sənədlər ünvanlayaraq Xocalı faciəsinə birmənalı yanaşmamağı, habelə məsələyə "soyqırımı" adı verilməsini tələb etmiş, dünya ölkələrini faciəyə münasibət bildirməyə çağırmışdır.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası Leyla Əliyevanın təşəbbüsü ilə heç də təsadüfi olmayan bir tarixdə - 2008-ci il mayın 8-də - Şuşanın işğalı günü irəli sürülmüşdür. Bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş bu siyası kurs 17 ildir ki, Ulu Öndərin layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində öz əksini tapıb. Belə ki, 13 ölkə və ABŞ-ın 22 ştatı parlament səviyyəsində, İslam Əməkdaşlıq Təşkilatı isə beynəlxalq qurum olaraq Xocalı soyqırımını rəsmən tanıyıb. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən etmişdir. Hətta Avropa Şurası və Avropa Parlamenti kimi hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul etmişlər.

Prezident İlham Əliyev mütəmadi olaraq soyqırımı həqiqətlərini beynəlxalq kürsülərdən dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bu qətiyyətli mövqeyinə görə ölkə başçısının 17 il ərzində apardığı siyasətə xalq dəstəyi hər zaman yüksək səviyyədə olub. Vətən müharibəsi dövründə güclü xalq-ordu və hakimiyyət birliyi müşahidə olundu. Hər kəs həmrəylik nümayiş etdirərək, cənab Prezidentin siyasətinə, ordumuzun səngərdəki mübarizəsinə dəstək verdi.

Bu illər ərzində biz "Xocalı faciəsinin günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarını almalıdırlar, bu dəhşətli cinayəti törədənlərin hamısı vicdanı qarşısında cavabdehdirlər və gün gələcək ki, onlar tarix məhkəməsi qarşısında da cavab verəcəklər" dedik və bunu Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında xalq olaraq bacardıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu güclü təşkilatlanmış düşmən, eyni zamanda onu himayə edən qərəzli, məkrli qüvvələr üzərində qələbə çaldı. Beləliklə, Vətən müharibəsində Prezident İlham Əliyev sadəcə Paşinyanı və Ermənistanı diz çökdürmədi. Uzun illər Ermənistana rəhbərlik etmiş, Azərbaycan xalqına qarşı Xocalı soyqırımını törətmiş cəlladlara, cinayətkarlara - Koçaryana və Sarkisyana, onların himayədarlarına da dərs verdi, onların ordusunu məhv etdi. Prezident İlham Əliyevin qətiyyətindən, əzmindən, şanlı Azərbaycan Ordusunun gücündən qorxan Koçaryan və Sarkisyan bir dəfə də olsun Dağlıq Qarabağ ərazisinə heç burunlarını belə soxa bilmədilər, qaçıb gizləndilər.

Azərbaycana qələbə sevincini bəxş edən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman əsgər və zabitlərimiz Xocalı qurbanlarının, respublikamızın suverenliyi və müstəqilliyi uğrunda həlak olan digər günahsız insanların qisasını aldılar. İndi Azərbaycanı layiqli əllərə, Azərbaycanın məğrur və qürurlu oğlu İlham Əliyevə əmanət qoyub gedən Ulu Öndər Heydər Əliyevin, şəhidlik mərtəbəsinə ucalan bütün əsgər və zabitlərimizin, günahsız insanların ruhu şaddır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***





# Yoluxma ocağına çevrilən avtobuslar

## Paytaxtın nəqliyyat qurumları pandemiya sınağından uğurla çıxa bilmir

Əvvəli 1-ci səh.

Bəllidir ki, metro bağlı olduğu üçün paytaxtda yaranan sərnişin sıxlığını aradan qaldırmaq yerüstü nəqliyyatın öhdəsinə düşüb. Lakin bu sahəyə məsul olan müvafiq qurumların fəaliyyəti göstərir ki, məktəblərdə əyani təhsilə keçidlə bərabər ikiqat artan sərnişindaşıma işi pandemiya şərtlərinə uyğun, yoluxma təhlükəsi yaratmadan həyata keçirilmir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkə ərazisində xüsusi karantin rejimi tətbiq etməsi ilə əlaqədar metro stansiyaları arasında müəyyən edilmiş marşrut əsasında iki istiqamət üzrə xüsusi M1 və M2 ekspress avtobus xətləri təşkil edilib. Bu marşrut xətləri yalnız metro stansiyalarının çıxışlarında olan dayanacaqlarda dayanır. M1 ümumilikdə 11 metrostansiya, M2 xətti isə 15 metro stansiyasını əhatə edir.

Düzdür, pandemiyanın ilk vaxtlarında, SMS icazə sisteminin tətbiqi müddətində bu xətlər sərnişin yükünü daşımaq gücündə olsa da, indi bunu bacarmır. Hazırda avtobuslarda inanılmaz sıxlıq yaşanır, xüsusilə də günün pik, işə gediş və çıxış saatlarında. Adıçəkilən marşrut dayanacaqlarında yığılmış yüzlərlə sərnişin arasında nə sosial məsafə qorunur, nə də virusa yoluxma riskini azaltmaq üçün tədbir görülür. İnsanlar sadəcə birtəhər avtobusa minib ya işə, ya da evə çatmağa tələsir.

Dayanacaqlara daxil olan avtobuslar arasında isə sanki yarış gedir. Ekspress marşrut xətləri üçün yollarda ayrıca zolaqlar yaradılsa da, yenə də davamlı gecikmələr baş verir. Hansı ki bu zolaqlarda ancaq ekspress marşrutlar hərəkət edir.

### Sosial məsafə təmin edilmir, dispenserlərə spirt əvəzinə su doldurulur

Bu durum Bakı şəhərində sərnişindaşıma ilə məşğul olan bütün qurumlara, həm dövlət, həm özəl şirkətlərə aiddir. Maraqlıdır ki, dəfələrlə paytaxtda sərnişin sayının artdığı etiraf edilsə də, avtobusların gecikməsini hər zaman yollardakı tıxaclara bağlayırlar. Avtobuslararası intervalın çox olmasına, avtobusların gecikməsinə, kartsızlığa, əlavə xətt avtobusları sürücülərinin özbaşınalıq etməsinə isə aydınlıq gətirən yoxdur.



Koronavirusla mübarizə dövründə Bakıda marşrut avtobuslarının sayı artsa da, sıxlıq yenə qalır, sosial məsafənin təminindən əsər-əlamət yoxdur. Marşrutlar potensial koronavirus ocaqlarıdır, çünki insanlar nəfəs-nəfəsə gedirlər. Avtobuslarda dezinfeksiya qaydalarına əməl edilmir. Yalnız televiziya kanallarının kameraları qarşısında bu prosesin hər gün həyata keçirildiyi göstərilir. Operativ Qərargahın tələb etdiyi heç bir sanitar-gigiyenik qaydaya əməl olunmur. Hətta avtobuslarda dispenserlərə spirt əvəzinə su doldurulur. Səbəbini soruşduqda sürücülər qaraj rəhbərliyini günahlandırırlar.

Görəsən pandemiya şəraitində insanların bu vəziyyətdə daşınması nə dərəcədə doğrudur, mövcud problemlər nədən aradan qaldırılmır?!

### Qüsurlar və çatışmazlıqlar illərdir aradan qaldırılmır

Paytaxt ərazisində nəqliyyat vasitələrinin təhlükəsiz, fasiləsiz və rahat hərəkətini təmin etmək və tənzimləmək funksiyası Bakı Nəqliyyat Agentliyinin üzərinə düşür. Paytaxt nəqliyyatındakı mövcud problemlərin aradan qaldırılması üçün hökumət tərəfindən quruma bütün səlahiyyətlər verilib və tam şərait yaradılıb. Ancaq deyəsən qurum sərnişindaşımanın yükünü çəkmək iqtidarında deyil!

Ekspert Ərşad Hüseynov da deyilənləri təsdiqləyir. Onun sözlərinə görə, Prezident İlham Əliyev yol-nəqliyyat infrastrukturunun, sərnişindaşımanın müasir tələblərə cavab verməsi üçün mühüm qərarlar qəbul edib, böyük vəsait ayırıb və davamlı ciddi tapşırıqlar verib. Amma bu işin həvalə olunduğu Bakı Nəqliyyat Agentliyinin fəaliyyətində hələ də ətalət, çatışmazlıqlar qalmaqdadır: "Metro bağlı olduğu üçün Bakıda sərnişindaşıma yerüstü nəqliyyatın üzərinə düşüb. Hələ bəzi məhdudiyyətlər olduğu üçün vətəndaşlar marşrut avtobuslarından o qədər də çox yararlanmırlar. Yəni hələ həyat tam öz axarına düşmədiyi halda belə avtobuslarda sıxlıq müşahidə olunur, tıxaclar yaranır. Sürücülərin məsuliyyətsizliyi, pik saatlarda gecikmələr, avtobusların qrafikdən kənara çıxmaları adi hallardır. Bütün bunlar tədricən aradan qaldırılmalı idi. Ancaq hələ də bunu görmürük. Səbəb odur ki problemlər köklü həll olunmur, hətta bəzən ortaya fantastik iddialar qoyulur, hansı ki həyata keçirilməsi qeyri-mümkündür. Yanlış qərarlar qəbul edilir. Bir halda ki dövlət adından bu işlər həmin quruma tapşırılıb, o sahədə hansı problemlər varsa, ən qısa müddətdə təhlil olunub həllini tapmalı idi. Ancaq görünən mənzərə tam başqadır".

Ekspert Ərşad Hüseynov qeyd edir ki, bəzən yanlış olaraq bu halların səbəbkarı kimi daşıyıcıları göstərirlər: "Axı bu prosesə nəzarət edən qurum Bakı Nəqliyyat Agentliyidir. Əslində BNA bu problemlərin aradan qaldırılması ilə bağlı hökumət qarşısında real, əsaslı təşəbbüslər qaldırmalıdır və ən əsası, fəaliyyətini daha da təkmilləşdirmək və şəffaflaşdırmaq üçün səmərəli təkliflər irəli sürməlidir. Bu gün problem mahiyyəti üzrə araşdırılsa, real mənzərə ortaya çıxar. Paytaxt nəqliyyatına nəzarət edən qurumun indiyəqədərki yanlış qərarlarının nəticəsidir ki, nöqsanlar, problemlər həllini tapmır".

### Nəqliyyat planına uyğun atılan addımların effekti yoxdur

Bakı Nəqliyyat Agentliyinin Mətbuat katibi Mais Ağayev isə açıqlamasında qeyd edib ki, ölkə ərazisində xüsusi karantin rejiminin yumşaldılmasından sonra paytaxtdakı marşrutlarda sərnişin sayı artıb. Bu da əsasən Bakıda tətbiq edilmiş sms-icazənin ləğv edilməsi ilə bağlıdır: "Ümumiyyətlə, ölkədə istər sərt karantin rejiminin tətbiqi, istərsə də karantin şərtlərinin yumşaldılması zamanı əvvəlcədən hazırlanmış nəqliyyat planına uyğun olaraq addımlar atılır".

Ancaq nədənsə nəqliyyat planına uyğun atılan addımların effekti yoxdur. Görünən isə odur ki, sərnişin sıxlığının azaldılması üçün marşrut xətləri arasında koordinasiya yoxdur. Günün pik saatları üçün lazım olan çevik qrafiklər hazırlanmır. Gecikmələr müşahidə olunduğu zaman avtobuslararası intervallar azaldılmır.

Ən əsası, avtobusların hərəkət xətləri üzrə indi xüsusi zolaqların yaradılması və onların artıq hərəkətlərini maneəsiz həyata keçirmələri daha tıxacla bağlı bəhanəni də əhəmiyyətsiz edir...

Bəzən isə BNA avtobusların say azlığından şikayət edir. Ancaq bu da bir bəhanədir və görünən odur ki, yerüstü sərnişindaşımanı həyata keçirən agentlik pandemiya sınağından çıxa bilmir.

*Pandemiya şəraitində 130-140 nəfərin qapalı avtobusda, heç bir sosial məsafəni qorumaq mümkün olmadan getdiyi təhlükəli yolçuluq isə hər gün davam edir. Əlaqədar qurumlar tərəfindən yaşanan narahatlığa, təhlükəyə effektiv bir əncam çəkilməsə, bu təhlükə hələ çox davam edəcək...*

***Rəşad BAXŞƏLİYEV,***
***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Prezident qayğısı

## Bu il daha 3 minə yaxın şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunacaq

Əvvəli 1-ci səh.



Dövlət başçısı şəhid ailələri ilə görüşdə bir daha qeyd edib ki, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni dövlət bu proqramı Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcək. Digər şəhər və rayonlarda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Yaxın gələcəkdə bu proqram tam icra olunacaq.

### Ev almayan şəhid ailəsi qalmayacaq

Göstərilən rəqəmlər bir daha dövlətin bu kateqoriyadan olan insanlara qayğısının bariz nümunəsidir. Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir.

Prezidentin də söylədiyi kimi, dünyada müharibələr, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib: "Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək".

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri və onların ailə üzvlərinə göstərdiyi diqqət və qayğı hər zaman yüksək dəyərləndirilib. Həm dövlət başçısının, həm də Mehriban Əliyevanın mütəmadi olaraq bu kateqoriyaya aid insanlarla görüşməsi, səmimi söhbət etməsi, İlham Əliyevin "ev almayan şəhid ailəsi qalmayacaq" fikrini bəyan etməsi deyilənləri bir daha təsdiqləyir.

Prezident bu xoşməramlı, humanist missiyası ilə hər kəsə şəhid ailələrinə münasibətin necə olmasının nümunəsini göstərir.

### Mənzil və fərdi evlə təminat proqramı bu il 2 dəfəyə qədər genişlənəcək

Prezident İlham Əliyevin şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı nəticəsində mənzil və fərdi evlə təminat proqramı 2021-ci ildə 2 dəfəyə qədər genişlənəcək. Bu il 3 minə yaxın şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin olunacaq.

Fevralın 25-də Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələrinə və müharibə əlillərinə mənzillərin təqdim olunması bu istiqamətdə görülən işlərin uğurla və daha geniş miqyasda davam etdirildiyini göstərir.

Bir sözlə, Prezident İlham Əliyev ölkənin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında imzaladığı sərəncam bir daha təsdiq edir ki, dövlət hər zaman bu kateqoriyadan olan vətəndaşlarımızın yanındadır və bütün məsələlər ölkə başçısının daim diqqət mərkəzindədir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İşğaldan azad edilmiş Cəbrayılda aqrar sahənin yüksək templə inkişafı üçün potensial böyükdür

Əvvəli 1-ci səh.

Yayı isti, qışı mülayim keçən bölgədə otlaq sahələri geniş olduğu üçün heyvandarlıq da inkişaf etmişdi. 1988-ci ilin statistik məlumatlarına əsasən, əkin sahəsi 24877 hektar olan rayonda 77639 ton məhsul istehsal edilmişdi.

Sadalanan əmək, torpaq, iqlim və su resursları ilə indiki vaxtda isə əvvəlkindən dəfələrlə çox məhsul istehsal etmək mümkündür. Nəzərə alsaq ki, müasir dövrdə ölkəmizdə kənd təsərrüfatının bütün sahələrində müasir yanaşma ilə ciddi inkişafa nail olunub rayon heyvandarlıqda yeni növ cinslər, bitkiçilikdə isə daha məhsuldar toxumların tətbiqi ilə işğaldanəvvəlki istehsal həcminə nisbətən ciddi irəliləyiş əldə edə bilər.

Ekspert R.Alıyev xatırladır ki, işğaldan əvvəl respublika üzrə əkilən torpaqların cəmi 1,45 faizinə sahib olmuş Cəbrayıl rayonunda işçi qüvvəsi və iqlim resurslarından məhsuldar şəkildə istifadə edildiyindən daim yüksək məhsul götürülüb. Bunu nəzərə alaraq əsasən üzüm istehsalı üzrə ixtisaslaşan bölgədə bu sahədə istehsalın bərpasından sonra təqribən 23 faiz artım gözlənildiyini proqnozlaşdırmaq olar. Arpa, buğda, dənli və dənli-paxlalı bitkilərin istehsalında isə təqribən 1,5 faiz artım mümkündür. İribuynuzlu heyvandarlıqda təqribən 1, xırdabuynuzlu heyvandarlıqda isə 1,2 faiz artım əldə ediləcəyi təxmin edilir. Diri və kəsilmiş çəkidə ət istehsalı 0,6, yun istehsalı təqribən 1 faiz artacaq. Süd və yumurta istehsalında da müvafiq olaraq 0,5 və 0,6 faiz artım proqnozlaşdırılır.



Son illər ərzində Azərbaycanın kənd təsərrüfatının bütün sahələrində ciddi inkişaf əldə edilib. Şübhəsiz ki, ermənilər tərəfindən işğal edilməsəydi, Cəbrayıl rayonu da bu inkişafdan kənarda qalmayacaqdı. Odur ki, müasir dövrdə elmin inkişaf səviyyəsi, intensiv istehsal texnologiyaları, innovativ becərmə üsulları və rayonun öz potensial imkanlarından səmərəli istifadə onun gələcək uğurlarına inam yaradır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Məktəblərdə sanitar-gigiyenik qaydalara riayət olunmasına ciddi nəzarət var







Abşeronda COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə mütəmadi olaraq müxtəlif tədbirlər həyata keçirilir.

Rayonda yaradılmış operativ qərargahın üzvləri, hüquq mühafizə orqanlarının əməkdaşları və könüllülərdən ibarət mobil qrupların birgə iştirakı ilə Xırdalan şəhəri də daxil olmaqla kənd və qəsəbələrdə reydlər təşkil olunur, əhali arasında maarifləndirmə işləri aparılır.

Hələ ötən ayın sonlarında rayon ərazisində fəaliyyət göstərən məktəblərdə monitorinqlər keçirilib. Bunacan məktəblərdə kiçik təmir-bərpa işləri aparılmış, sinif otaqları səliqəyə salınmış, partalar ara məsafəsinə uyğun olaraq düzülmüş, dezinfeksiya və deratizasiya işləri aparılmışdır. Həmçinin məktəblərin istilik sistemi yoxlanılmış, elektrik və su xətlərində olan kiçik nasazlıqlar aradan qaldırılmış, ara məsafəni saxlamaq üçün yerdə xətlər çəkilmiş, hər sinfə ayrıca əltəmizləyici məhlul verilmişdir.

Məlumat üçün bildirək ki, rayonun 40 təhsil müəssisəsində 67 min şagirddən ilkin mərhələdə 29 mini əyani təhsilə cəlb edilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Vaksinasiyada da məsuliyyət və fəallıq lazımdır

## Yardımlının pedaqoji kollektivləri peyvəndləmə prosesində nümunə göstərirlər

Azərbaycan xalqının həyatında mühüm hadisələr az olmayıb. Ötən ilin əvvəlində koronavirus, payız aylarında isə erməni işğalçılarına qarşı mübarizədə qalib olmağımız da belə hadisələrdəndir.



Hər iki cəbhədə mübarizə aparan dövlətimiz qələbəmiz üçün bütün imkanları səfərbər etdi. Şükürlər olsun ki, 30 ilə yaxın Qarabağdan uzaq düşən dinclik, əmin-amanlıq müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevin başçılığı ilə bərpa olundu. Bayrağımızı Şuşada dalğalandıran Ali Baş Komandan tarixə zəfər imzası atdı.

Xalqımız da hər iki cəbhədə birlik, həmrəylik göstərərək qələbəyə öz töhfəsini verdi. Bu gün də həmin birliyin şahidiyik. COVID-19 pandemiyasından xilas olmaq üçün nümunə göstərməli, dövlətin bu sahədəki siyasətinin təbliğatçıları olmalıyıq. Bu istiqamətdə pedaqoji kollektivlərin də üzərinə xüsusi missiya düşür.

Məlum olduğu kimi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin təşkilatçılığı ilə ölkəmizdə fevral ayının 17-dən etibarən 50 yaş və daha yuxarı şəxslərin COVID-19 xəstəliyinə qarşı vaksinasiyası prosesinə başlanılmışdır. Vaksinasiya prosesi Yardımlı rayonunda da mütəşəkkilliklə həyata keçirilir. Mərhələli vaksinasiya prosesinin keçirilməsi üçün Yardımlı Rayon Mərkəzi Xəstəxanasında xüsusi peyvənd otaqları ayrılmış, ixtisaslı tibbi personal prosesə cəlb olunmuşdur. Müraciət edənlərin sağlıq durumu yoxlanıldıqdan sonra onlara peyvənd vurulur. Peyvəndlənənlər müəyyən zaman kəsiyində həkim nəzarətində olurlar.

Mənim də təmsil olunduğum Yardımlı rayonu A.Q.Fətullayev adına Anzov kənd tam orta məktəbinin 50 yaşdan yuxarı yaş qrupuna daxil olan pedaqoji və texniki heyəti adıgedən tibb müəssisəsində peyvəndlənmə prosesini keçmişdir. Fürsət düşmüşkən, vaksinasiya prosesini mütəşəkkilliklə həyata keçirdiyinə, yüksək səriştəli tibbi personalın professionallığına və yaradılan hərtərəfli şəraitə, səliqə-sahmana görə Yardımlı Rayon Mərkəzi Xəstəxanasının kollektivinə minnətdarlığımızı bildirmək istərdik.

***Malik BALAŞOV,***
***Yardımlı rayonu A.Q.Fətullayev adına Anzov kənd tam orta məktəbinin müəllimi***

# Azərbaycanda koronavirusdan 172 nəfər sağalıb, 278 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 172 nəfər müalicə olunaraq sağalıb, 278 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 234 min 267 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 228 min 651 nəfər müalicə olunaraq sağalıb, 3218 nəfər vəfat edib. Aktiv xəstə sayı 2398 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 591 min 235 test aparılıb. Dünənki test sayı isə 7873-dür.



## Dünya olduğu kimi

# Dünyanın geyim dəbini dəyişən kəşf

**“Bütün Amerika onunla böyüyüb”. Cins şirkətlərindən birinin şüarında bu sözlər yazılıb. Ancaq indi demək olar ki, bütün dünya onunla böyüyür. Elə bir ölkə, elə bir insan tapılmaz ki, ondan istifadə etməsin.**

Cins kiçikdən böyüyə, kasıbdan varlıya, sıravi insandan prezidentə qədər hər kəsin qarderobunda mütləq özünə yer edən geyim növüdür. Olduqca rahat və praktikliyi ilə seçilən cins şalvarlar ölkə rəhbərlərinin, məmurların, idmançıların, aristokratların, fəhlələrin, sənət adamlarının, gənclərin, bir sözlə, dinindən, dilindən, irqindən asılı olmayaraq hər təbəqəyə məxsus insanların sevimli geyimidir.

“Jeans” sözü fransız mənşəli olub Genuyanın göyü və ya mavisi (bleu de Genes) mənasını verir. Pambıq, kətan və yun qarışığından toxunan cins parça İtaliyanın Genuya şəhərində 16-cı əsrdən istehsal olunur. Maraqlıdır, bəs görəsən bütün dünyada məşhur olan cins şalvarı ilk dəfə kim və necə kəşf edib?

Əslində bütün başqa dahiyanə kəşflər kimi, cins şalvarlar da təsadüf nəticəsində yaranıb. Tarixdə bu kəşf Levi Straussun adı ilə bağlıdır.



1829-cu ildə Bavariyada dünyaya gələn, 18 yaşında Amerikaya işləmək məqsədilə köçən yəhudi mənşəli belçikalı mühacir Leyba Straussun atası dərzi olub. 1853-cü ildə San-Fransiskoya gedən bu dərzi oğlunu hələ gəmidə ikən “Levi Strauss” deyə çağırmağa başlayıblar. 24 yaşlı Levinin qoltuğunda atasından qalmış miras kimi vur-tut bir top parusin, yəni qalın kətan parça varmış. Yoxsul gənc vəhşi Qərbin bu çılğın dünyasında sağ qalmaqdan ötrü elə küçədəcə çadır tikmək üzrə sifarişlər almaqdan ötrü öz xidmətini təklif etməyə başlayır.

Bu xidmətdən yararlanmaq istəyən qızıl mədənində çalışan bir işçinin “möhkəm şalvarlarla ağac altında da gecələmək mümkündür” fikri isə yeni geyim növünün kəşfi üçün ideya olur. Levi özü əvvəllər heç zaman şalvar tikməyibmiş. Amma atasının bunu necə etdiyini saatlarla seyr edirmiş. Buna görə də dərzi oğlu özünü itirmir və həmin fəhləyə şalvar tikir. Bu, Levi Strausun şəxsən tikdiyi ilk cins şalvar sayılır. Qiyməti isə 1 dollar 20 sent olur. Beləliklə, bu ilk şalvar gənc dərzinin həyatını və bütün dünya dəbini kökündən dəyişmiş ilk təcrübəyə çevrilir.




Strauss həmin dövrdə mədən işçilərinin gec cırılan, möhkəm parçadan tikilmiş iş geyimlərinə ehtiyacı olduğunu anlayır. Bununla da onda qalın, dayanıqlı, ləkələri göstərməyən materialdan şalvar istehsal etmək ideyası yaranır. O, elə həmin il San-Fransiskoda şalvar tikişi üzrə emalatxana açır.

Cinslərin klassik indiqo, yəni tündsürməyi rəngi də Levi Straussun ideyasıdır. O, atasından qalmış parusini işlətdikdən sonra möhkəm pambıq parçadan istifadə etməyə başlayır. Həmin parçanı isə Fransanın Nima şəhərində istehsal edirdilər. Parçanın “denim” (de Nimes - Nimadan) adı da buradan yaranıb. Bu parçanı İtaliyanın Genuya limanından gəmilərə yükləyib gətirirlər. Buna görə də yükün üzərinə italyanca yolasalınma yeri “Genoese” yazılırdı. Bu sözü də amerikalılar öz bildikləri kimi oxuyurdular: “Jeans” - cins.

Zaman keçdikcə bu şalvarlarda kəmər üçün ilgəklər, dərin qabaq və əlverişli arxa ciblər, məşhur ikiqat tikiş yaranır. Bir müddətdən sonra isə Levi Strauss San-Fransiskoda fəhlələr üçün geyim istehsalında ixtisaslaşan “Levi Strauss & Co” şirkətini qurur. Bu, hazırda bütün dünyada tanınan “Levi's” şirkətidir. 1873-cü il mayın 20-də “Levi Strauss & Co” şirkəti cins adlandırılan şalvarların tikilməsi hüququnu əldə edir. Məhz bu tarix cinsin rəsmi yaranma tarixi sayılır.

1886-cı ildə Levi Straussun möcüzəli şalvarlarının qiyməti 22 dollara yüksəlir. Elə onda da Levinin firma cinslərini çox uğursuz şəkildə cırmağa çalışan iki atın təsvir edildiyi məşhur dəri leybl (etiket) yaranır. Belə fikir də var ki, bu leyblın yaranması bir maşinistin söylədiyi əhvalata əsaslanır. Maşinist danışıb ki, bir dəfə o, şalvarlarla vaqonları bir-birinə bağlamalı olub və bu şəkildə stansiyaya qədər gedib çıxıb.

1890-cı ildən cinslərdə partiya nömrələri qoyulmağa başlanılır, birinci 501 olur, məhz həmin tarixdən bütün dünyada məşhur “Levi's 501” cinsləri peyda olur.

San-Fransiskonun bütün mədənlərinin tezliklə bağlanmasına və qızılaxtaranların işinin bitməsinə baxmayaraq, cinslərin populyarlığı azalmır, əksinə, maraq daha da artır. Bu geyim neft işçiləri və kovboylar tərəfindən də tələbata çevrilən geyimə çevrilir.

1930-cu illərdə kinoteatrlarda dar cinslər geymiş kovboylar haqqında filmlər nümayiş olunur. Beləliklə, yalnız Hollivud deyil, bütün dünya bu rahat və gözəl geyimi sevir. Qısa zaman kəsiyində kovboylar cins şalvar trendini zirvəyə çıxarırlar. Hələ üstəlik bununla kifayətlənməyib yeni növ cins şalvar trendini yaradırlar - “bootcut”. Beləcə, hündürboğaz çəkmə uzunluğuna uyğun balaq kəsimi kəşf edilir və qısa müddətdə çox məşhurlaşır.

Çox keçmir ki, cins gəncliyin ən sevilən geyim stilinə çevrilir, küçələrdə tez-tez cins geymiş insanlara rast gəlinir. Lakin bu birmənalı qarşılanmır, ilk zamanlar restoranlar, teatrlar cins şalvara qarşı kəskin reaksiya verirlər. Hətta bir müddət Amerikada məktəblərdə cins şalvar geyinməyi qadağan edirlər. Bununla da cins şalvarlar gənclərin bir növ inqilab simvoluna çevrilir.

Cins dəbində əsl çevriliş isə XX yüzilliyin 60-cı illərində baş verir. Modelyerlər denimdən yalnız şalvarlar deyil, həm də plaş, köynək, ətək, kepka, gödəkçə, hətta ayaqqabı da tikməyə başlayırlar. Tezliklə modelyerlər öz yaradıcılıq imkanları üçün yeni geniş meydan əldə edirlər.

Ötən əsrin 70-ci illərində istehsalçılar enlibalaq cinsləri kəşf edirlər və cins şalvarlar status olaraq növbəti mərhələyə keçir. Artıq dövrün məşhur ulduzları tərzlərini tamamlamaq üçün bu şalvarlardan böyük cəsurluqla istifadə edirlər. Azadlıq erası olan 70-ci illərdən sonra cins şalvar müəyyən ildənbir yenilənmiş tərzi ilə moda dünyasındakı taxtını qoruyub saxlaya bilir.

Keçmiş sovet məkanında cinslə tanışlıq 1980-ci il Moskva Olimpiya Oyunlarından sonra baş verir. Müxtəlif ölkələrin qatıldığı beynəlxalq tədbir sovet mədəniyyətinə və həyat tərzinə böyük təsir göstərir. Sovet vətəndaşları ilk dəfə cinsin nə olduğunu öyrənirlər. Lakin cins qadağan olunmasa da, fəhlə və kəndli ölkəsində isti qarşılanmır.

ABŞ-dan dünyaya yayılan cins şalvarlar artıq bütün insanların ilin dörd fəslində də sevərək geyindikləri vazkeçilməz geyim növünə çevrilib. Və görünən odur ki, hələ neçə əsr də dünya dəbində əsas yerini qoruyub saxlayacaq.

# Qalaktikanın ən böyük 3D kataloqu yaradıldı

**Amerikalı astronomlar səmanın dörddəüçünü əhatə edən ulduzların, qalaktikaların, kvazarların üçölçülü astronomik təsvirinin mükəmməl kataloqunu yaradıblar. Bu barədə məlumat Havay Universitetinin saytında yer alıb.**




Havay Universiteti Astronomiya İnstitutunun alimləri Mauna-Kea vulkanında yerləşdirilmiş Pan-STARRS teleskopunun məlumatlarından istifadə ediblər. Bu sistem üçün bütöv səmanın dörddəüç hissəsi və ya 30 min kvadrat dərəcə əlçatandır.

Məlumatların təhlilində yeni hesablama alətlərini tətbiq edən astronomlar müəyyənləşdiriblər ki, Pan-STARRS-ın qeydə aldığı 3 milyard obyektdən hansı ulduz, hansı qalaktika və ya kvazardır. Proqram qalaktikalara qədər olan məsafəni də hesablayıb. Nəticədə müəlliflər dünyada ən böyük - ölçüsü 300 Giqabayt olan çoxrəngli optik üçölçülü kataloqu tərtib ediblər.

Astronomlar ümumi əlçatan olan, obyekt və məsafələrin dəqiq təsnifatını verən spektroskopik ölçünü götürərək onları süni intellekt alqoritminə ötürüblər. Belə yanaşma qalaktika üçün 98,1, ulduzlar üçün 97,8 və kvazarlar üçün 96,6 faiz dəqiqliklə təsnifat aparmağa imkan yaradıb.

Tədqiqatçıların fikrincə, qalaktikaya qədər məsafənin qiymətləndirilməsində səhvə yol verilməsi üç faizdir. Süni intellektin köməyi olmadan obyektləri ölçüsünə və rənginə görə müəyyənləşdirmək mümkün olmazdı.

İndiyədək kainatın ən böyük xəritəsi Sloan Rəqəmsal Səma Araşdırması (SDSS) olub ki, bu da səmanın üçdəbirini əhatə edib. Yeni kataloqda müşahidə ərazisi iki dəfə genişləndirilib, habelə bir sıra məlumatlar dəqiqləşdirilib. Ümumilikdə kataloqda 2 milyard 902 milyon 54 min 648 obyekt haqqında məlumat və onların əsas parametrləri toplanıb. Tədqiqat müəlliflərinin fikrincə, bu kataloq gələcək kəşflər üçün başlanğıc nöqtəsi də ola bilər.



# Bu hotelə yalnız kanat yolu ilə getmək mümkündür

**İsveçrənin Alp dağlarında sərt qaya üzərində yerləşən hotelə yalnız kanat yolu vasitəsilə getmək mümkündür. Hotel turistlər və təbiəti sevənlər üçün yalnız ilin aprel-oktyabr aylarında açıq olur.**

Hoteldə yaşamaq üçün şərait o qədər də komfortlu deyil. Bir neçə otaqdan ibarət mehmanxana 4 nəfər üçün nəzərdə tutulub. Burada qonaqlara Alp dağlarının sakinlərinin ənənəsinə uyğun olaraq sadə, lakin doyumlu yemək təklif olunur.

Dağların, göllərin və vəhşi təbiətin gözəlliyini seyr etmək istəyən qonaqlar bu məqsədlə 1 və ya 3 saatlıq sadə və mürəkkəb marşrutlardan istifadə edirlər.

*Xəyalə MURADLI,*
*“Azərbaycan”*

## Sağlıq olsun

# Virus qalxanı - **anticisim**

### Həkim məsləhəti



**Pandemiya ərəfəsində insanların marağına səbəb olan ən populyar mövzulardan biri də qoruyucu anticisimlərdir. Bəs anticisim nədir, doğrudanmı o bizi bütün viruslardan qoruyur? Anticisimlə bağlı yaranan bir çox suallara türkiyəli məşhur professor Osman Müftüoğlu ətraflı cavab verib.**

O bildirib ki, immun sistemimiz virusla birbaşa, yaxud da peyvəndlə bədənə daxil olan virus hissəcikləri ilə qarşılaşdıqda dərhal fərqli quruluşa və gücə malik anticisimlər istehsal etməyə başlayır. Bu anticisimlər bir müddət orqanizmi sonrakı virus hücumlarından qoruyaraq, yenidən xəstələnməyimizin qarşısını alır. Anticisim istehsal edən immun hüceyrələri isə B-lenfositləridir.

## Anticisim istehsalı hər kəsdə fərqlidirmi?

İstehsal olunan anticisim miqdarı insana görə dəyişir. İnfeksiyanı yüngül, yaxud da simptomsuz keçirənlərdə anticisim səviyyəsi aşağı olur, həm də qısa zaman ərzində - təxminən 2-3 ay arasında daha çox azalmağa başlayır. Hətta xəstələnənlərin dörddəbirində sıfıra enə bilir. Digər tərəfdən “yaş” və “cins” də əhəmiyyətli detallardır. Bədən yaşlandıqca ümumilikdə az anticisim yaranır, həm də istehsal etdiklərini daha qısa zamanda itirə bilir.

Tam araşdırılmasa da, qadınların anticisim istehsal etməkdə kişilərdən bir az daha müvəffəqiyyətli olduğu düşünülür.

Yeni növ koronavirusa qarşı anticisim istehsal etmək və o anticisimləri daşımaq, yəni anticisim baxımından güclü olmaq hər kəs üçün vacib üstünlükdür. Çünki anticisimlər istər xəstəlikdən sonra, istərsə də vaksinlər vasitəsilə istehsal edilməsindən asılı olmayaraq bizi orta və ya ağır bir infeksiya keçirməkdən ciddi şəkildə qoruya bilir. Hansısa bir səbəbdən virusa yoluxuruqsa, bu zaman anticisimlər dərhal hərəkətə keçir və onu zərərsizləşdirir.

Amma onu da vurğulayaq ki, bədənimizdəki anticisimlərin azalması, ya da neqativləşməsi immun sistemimizin müdafiəsiz qaldığı anlamına gəlmir. Çünki o anticisimləri istehsal edən B-lenfositlərinin daha bir alt qrupu var. Onlar “yaddaş tutumu” ilə məşhur olan fövqəladə dərəcədə istedadlı hüceyrələrdir.

“Yaddaş B-lenfositləri” çox vacib funksiyaları yerinə yetirir və bu hüceyrələr illərlə yaşaya bilir. Bu səbəbdən bədənimizdə anticisim qalmasa belə bu “yaddaş B-lenfositlər” virusla yenidən qarşılaşdıqlarında onu dərhal tanıyır və yenidən ona qarşı anticisim istehsal etməyə başlayır. Bundan əlavə, immun gücümüz yalnız anticisimlərə meyilli deyil. İmmun sistemimizdə anticisimlərdən daha güclü, daha təsirli digər təfərrüatlar da var.

Düzdür, anticisimlər viruslara qarşı güclü bir silahdır. Virusu hərəkətsiz hala gətirərək xəstəlik yaranmasına mane olurlar. Ancaq viruslarla əlbəyaxa mübarizə aparan T-lenfositlərini də unutmaq olmaz. Onlar da B-lenfositləri kimi, virusla ilk qarşılaşdıqları andan etibarən təşvişə düşürlər və dərhal mübarizəyə qoşulurlar. Yaddaşdakı virus izlərini qeyd edir, yeni bir virus hücumu zamanı dərhal hazır olurlar. Bir sözlə, “Anticismim bitdi, tükəndi. İndi nə edəcəm?” deyə narahat olmağa dəyməz. B və T lenfositlərimizdəki yaddaş sisteminin gücü az və ya çox olsa belə hər zaman işləyəcək.

COVID-19 infeksiyasına yoluxanlarda immunitet sistemi ən gec 2-3 həftə içərisində anticisim istehsal etməyə başlayır. Başlanğıcda “IgM anticisimləri”nin istehsalı ön planda olsa da, bunlar adətən zamanla azalmağa başlayır və yerlərini daha güclü və qalıcı olduqları yaxşı bilinən “IgG anticisimləri”nə verirlər. Ancaq “IgG anticisimləri”nin istehsalı da zaman içərisində təxminən 6-12 ay arasında azalmağa başlayır.

## Peyvənd olunmalıyam?

Anticisimi təyin etmək bahalı, çətin və vaxt aparan bir prosesdir. Buna görə də heç bir ölkədə peyvənd edilən zaman onda anticisimlərin varlığını araşdırmırlar. Ortaq qənaətə görə, belə bir araşdırmaya ehtiyac yoxdur. Digər tərəfdən xəstəliyə qarşı yaradılan anticisimlərin bədəndə ortalama 5-6 ay qaldıqları bilinir. Buna görə də mütəxəssislər xəstəliyi keçirənlərdə yeni bir COVID-19 infeksiyasının yaranmasını önləmək üçün ən erkən 2, ən gec 6 ay sonra yenidən peyvəndləməni məsləhət bilirlər.

İstər xəstəliyə yoluxmaq, istərsə də peyvəndlənmək infeksiyaya qarşı immunitet qazandırmış olur, nəticənin fərqi yoxdur. Amma bütün hallarda qazandığımız bu immunitet bizi xəstələnməkdən, ən əhəmiyyətlisi isə, bu xəstəlikdən ölməkdən qoruya bilər. Digər tərəfdən, məlumatlara görə virus immunizasiya olunmuş şəxslərdə ağızda, burunda və ya boğazın hər hansı bir hissəsində yerləşə və gizlənə bilər. Bu halda həmin şəxsi xəstələndirə bilməz, ancaq ətrafa yayılmasına səbəb olar. Buna görə də maska və məsafə məsələsi epidemiya bitənə qədər gündəmdə saxlanılmalıdır. Ancaq yenə də bilməliyik ki, virusa qarşı immunitet qazanmış bir insanın yaydığı virusun miqdarı yoluxmuş və ya xəstə bir insanın yaydığı virusun miqdarından çox azdır.

### Tədqiqat

# Anadan körpəyə bətndə ötürülür

**Amerika alimlərinin apardıqları tədqiqatın nəticələrinə əsasən, COVID-19-dan qoruyan anticisimlər anadan körpəyə bətndə ötürülə bilir.**



Bu kəşf hamilə qadınların koronavirusa yoluxandan sonra orqanizmdə yaranan qoruyucu anticisimləri bətnlərindəki körpələrə ötürmələri ilə bağlı fikirləri bir daha təsdiqləyir. Alınan məlumatlardan belə bir qənaətə gəlmək olur ki, gələcək anaların peyvənd olunması yeni doğulan körpələr üçün də faydalı olacaq.

Tədqiqatın baş müəllifi doktor Yavəy Cenni Yanq və onun komandası 2020-ci ilin mart və may ayları arasında doğuş edən 88 qadının qan nümunələrini analiz ediblər. Bütün qadınların qanında COVID-19-a qarşı anticisimlər aşkarlanıb ki, bu da onların nə vaxtsa virusla qarşılaşdıqlarını göstərir. Amma bununla belə bu qarşılaşma onların 58 faizində simptomsuz keçib.

Bu qadınlardan doğulan körpələrin 78 faizində anticisimlər göbək qanında aşkarlanıb. Körpələrin heç birinin birbaşa virusa yoluxması və doğuşdan dərhal sonra onların COVID-19 testlərinin mənfi çıxması barədə məlumat əldə olunmayıb. Bu da anticisimlərin plasentadan keçdiyini göstərir.

### Elmi araşdırma

# Ağciyərlərdə yaranan melatonin virusa mane olur



“Ağciyərlərdə əmələ gələn melatonin hormonu koronavirusa qarşı maneə rolunu oynayır”. Braziliyanın San-Paulo Universitetinin alimləri bu nəticəyə gəliblər. Alimlər laboratoriya şəraitində müəyyən ediblər ki, melatonin giriş nöqtələrində - burun və ağciyər yollarındakı hüceyrələrdə zülalları kodlayan genləri virusun zədələməsinin qarşısını alır.

Beləliklə, hormon bu toxumaların yoluxmasının qarşısını alır və virusun immun reaksiyasını boğur, onu bir neçə gün tənəffüs yollarında saxlayır, sonra başqa bir daşıyıcı tapmaq üçün hərəkətə keçir.

Tədqiqat müəlliflərinə görə, onların kəşfi bəzi insanların koronavirusa yoluxmadığını anlamağa imkan verir.

Mütəxəssislər melatonin hormonunun burun damlaları və ya sprey şəklində koronavirusun inkişafının qarşısını almaq üçün istifadə edilə biləcəyinə əminliklərini vurğulayıblar.

*Yasəmən MUSAYEVA,*
*“Azərbaycan”*

### Şəfalı bitkilər

# Bu bitki koronavirusu 10 dəqiqəyə öldürür

**Türkiyəli həkim Mustafa Gerek məlumat verib ki, aparılan yeni araşdırmaların nəticələrinə görə, buxurkolu (cistus creticus) bitki tərkibli məhsulların virusla mübarizədə önəmli rolu var.**



O söyləyib ki, Almaniyada aparılan bir araşdırma zamanı buxurkolu tərkibli məhsulların 10 dəqiqəlik təmas müddətində virus konsentrasiyasında 99,9 faiz azalmaya səbəb ola biləcəyi ortaya çıxıb: “Buxurkolu bitkisinin məhsullarının koronavirusla mübarizədə təsirli olacağına inanıram. Bu antioksidan özəllikli bitkidir. Ağız və udlaq nahiyəsində baryer yaradaraq virusa qarşı təsir edir, orqanizmi qoruyur”.

# Xalqımızın qürur günü kitablarda

Tariximizin şanlı səhifələri arasında 20 Yanvarın xüsusi əhəmiyyəti dövlət müstəqilliyinin bərpasından ötən müddət ərzində özünün təsdiqini tapdı. O qanlı, müdhiş gecə yaddaşlara qara hərflərlə yazılsa da, milli azadlıq tariximizin şərəfini uca tutan xalqımızın qürur günü oldu.

Çünki əzmkarlıq, qətiyyət, milli həmrəylik məhz o dəhşətli gündə özünün kulminasiya zirvəsinə yüksəldi. Meydandan ucalan "Azadlıq!" hayqırtısı 70 illik ömrü olan imperiyanı diz çökdürdü! Məhz buna görə - xalqın haqq səsini batırmaq, azadlıq arzusunu gözündə qoymaq, onları əzmək, qorxutmaq, meydanlardan uzaqlaşdırmaq üçün 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşun hissələri Bakıya yeridildi.

Düşmənin məkrli niyyəti Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı. Lakin azğın düşmən millətimizin gözünü qorxuda bilmədi: xalqın zülmə qarşı əzmkarlığını sarsıtmaq mümkün olmadı. 20 Yanvar faciəsi - qanlı tarix xalqın qan yaddaşına çevrildi. Şəhidlərimiz hər il sükutla anıldı. Vətənin azadlığı uğrunda qurban gedən insanların əziz xatirəsi böyük ehtiramla yad edildi. Azərbaycan tarixinin bu qanlı səhifəsi ilə bağlı xeyli sayda kitablar yazıldı...

Otuz ildən artıqdır ki, ölkəmizin hər guşəsində fəaliyyət göstərən kitabxanalarda və sərgi salonlarında 20 Yanvar haqqında yazılmış kitablar nümayiş olunur. Burada o dəhşətli günləri əks etdirən "Şəhidlər", "20 Yanvar hadisələri, sənədlər, mövqelər və şərhlər", "Qarabağ rüzgarları", "Qara Yanvar şəhidləri", "Şəhidlər dastanı", "Dünyamızın 20 Yanvar faciəsi", "Qara Yanvar" dialoqu", "Qanlı Yanvar", "Vətən çağırır" və digər kitablar sərgilənir.

## Əli silahsızlar, özü günahsızlar

Yuxarıda qeyd etdiyimiz kimi, "20 Yanvar"dan ötən 31 il ərzində o müdhiş gecənin ağrı-acılarına, eləcə də tarixi əhəmiyyətinə həsr edilən onlarla sanballı ədəbi-bədii nəşrlər işıq üzü gördü. 20 Yanvar şəhidlərinin hələ 40 mərasiminədək yazıçı-jurnalist Rafiq Səməndərin ev-ev, el-el, əl-əl gəzən, hər səhifəsində bir qara dastan yazılmış "Şəhidlər"i sonralar bu mövzuda qələmə alınan kitabların qaranquşu, yeni bir janrın özülü sayıldı. 450 səhifəyə yaxın, 150 min nüsxədən ibarət bu kitab şəhid analarının göz yaşı, bacı-qardaşların düşmənə nifrəti ilə qələmə alınmışdı. "Gənclik" nəşriyyatında buraxılan kitabın "Ön söz"ündə Xalq şairi Bəxtiyar Vahabzadə yazırdı: "...Bu kitab hər şəhidin ölümünə deyilən ağılardan ibarətdir. Bunlar adi yazılar deyil, bədii sözlə bir qədər əfsanələşdirilmiş, qeyri-adiləşdirilmiş nəğmələrdir. Çünki bu yazıların qəhrəmanları özləri adi olduğu qədər ölümləri də qeyri-adi, ağlasığmazdır. Axı heç kəsin ağlına gələ bilməzdi ki, qəlbi vətən hissi ilə çırpınan, əli silahsız, özü günahsız olan bu atalar, analar, balalar özünü dost, qardaş kimi qələmə verən bir ordunun əlində qətlə yetirilsin..."

Şəhidlərimiz haqqında yazılan hekayətlər həm də gələcək nəsillər üçün ibrət dərsidir. Qoy onlar sadəlövh olmasınlar, xeyiri şərdən, qaranı ağdan, dostu düşməndən ayıra bilsinlər. Bilsinlər ki, qarşılaşdıqları qarmaqarışıq diplomatiya, hiylə zəmanəsində hər gün, hər saat ayıq və kəsərli olmasalar, hadisələrin axırını əvvəldən görə bilməsələr, onların da başına müsibətlər açılar, tarix səhnəsindən silinə bilərlər.



O qanlı hadisədən ötən müddət ərzində qələmə alınan çoxsaylı nəşrlərin sırası genişlənsə də, bəziləri təbliğat nöqteyi-nəzərdən xüsusi əhəmiyyət daşıyır ki, belələrindən biri də Mədəniyyət Nazirliyinin F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi-Metodika Şöbəsinin tərtib etdiyi "Tarixin qan yaddaşı"dır. Bu elmi-metodiki vəsaitdə, əslində, kitabxanaçı-təbliğatçılarla yanaşı, daha geniş oxucu auditoriyasına 20 Yanvarla bağlı əsaslı mənbələrə istinad olunan faktlar təqdim edilir.

## "20 Yanvar: güllələnmiş qəzet"in kitablaşan ömrü

Vəsaitin birinci bölməsi Azərbaycan Prezidenti İlham Əliyevin 20 Yanvarla bağlı fikirlərindən seçmə ilə başlayır: "Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqı ən böyük sərvətdir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Əlbəttə, bu mövzuya həsr edilən nəşrlər, təbii ki, yuxarıda nümunə göstərilənlər deyil. Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması, Şakir Yaqubovun "Mən şahidəm ki... Qara yanvar: əvvəl və sonra", Sabir Yanardağın "Yanvar qırğınının intiqamı", Vahid Məhərrəmovun "Qanlı gecə, qanlı tarix"i, Müşfiq Əmirovla Mədəd Coşğunun tərtibatı ilə işıq üzü gömüş "20 Yanvar faciəsi və rabitəçilər" toplusu, Aydın Balayevin "20 Yanvar hadisələri: sənədlər, mövqelər, şərhlər", Qüdrət Əbdülsəlimzadənin "Nikbin faciə: Qanlı Yanvar düşüncələri", Aliyə Ədalətin "Şəhid ömrü yaşayanlar", Qulu Kəngərlinin "Qanlı şənbəyə gedən yol: 1990-cı il yanvar ayının xronikası", "O günlərin radio səsləri, şahidli, şəhidli gecə", "Qara Yanvar şəhidləri", Məzahir Süleymanzadənin "20 Yanvar: güllələnmiş qəzet"i, Azərbaycan Milli Kitabxanası tərəfindən buraxılan "Şəhidlər: biblioqrafiya", Niftalı Şıxların "Dünyamızın 20 Yanvar faciəsi", Şövkət Xanməmmədovanın "20-dən 20-yə" povesti, Xəliyəddin Xəlilin "Azərbaycan xalqını dünyaya yenidən millət kimi təqdim edən 20 Yanvar"... kimi bir-birindən dəyərli kitablar anadilli oxuculara yalnız həmin günlərin müsibətlərinin acı göz yaşlarını yaşatmadı, həm də şəhidliyin müqəddəsliyini anlatmış oldu. 20 Yanvarın əsl həqiqətləri rus və ingilis dilli oxuculara da təqdim edildi.

Tofiq Qəhrəmanovun "Cəlladımız zalım idi" ağı-salnaməsini o günlərin qanlı xronikası da adlandırmaq olar: "Ulu Zərdüştün hikmətlərinin birində deyilir: " Ey həqiqət, o vaxt ki, sən mənim ürəyimdəsən, deməк, xalqımın içindəsən".

## Qədirbilənlik və Qələbə əzmi…

Bütün bu sənədli və ədəbi-bədii salnamələrdən bir daha məlum olur ki, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o, təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.

Kitablarda göstərilir ki, xalq o günlərdə böyük bir həqiqəti - əsl liderin meydanda olmamasını bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə Ulu Öndər Heydər Əliyevin - qüdrətli şəxsiyyətin hakimiyyətdə olmaması günün ən böyük həqiqəti kimi hiss olundu. 20 Yanvarda xalqının səsinə hər kəsdən əvvəl səs verən də məhz Kremldə öz əzəməti ilə sayılıb seçilmiş və erməni məkri ilə Siyasi Bürodan, tutduğu vəzifədən uzaqlaşdırılmış Heydər Əliyev oldu. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də oğlu, o çətin günlərdə atasını bir an belə tək qoymayan, 2003-cü ildən isə hər bir azərbaycanlının Prezidenti kimi sevilən cənab İlham Əliyevlə birlikdə Azərbaycanın oradakı daimi nümayəndəliyinə gedərək təcavüzə kəskin etirazını bildirdi. Faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılması tələbini qoydu.

Qədirbilən və vətənsevər xalqımız Qarabağda əldə etdiyi böyük Zəfərlə birlikdə 20 Yanvar hadisələrinin 31-ci ildönümünü də qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla anır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Beynəlxalq aləm



## Argentinanın səhiyyə naziri COVID-19-a yoluxdu

Argentinanın səhiyyə naziri Karla Vissotti COVID-19-a yoluxmuş və təcrid olunmuşdur. Nazir müvafiq bəyanatı "Twitter"də yerləşdirmişdir.

Vissotti qeyd etmişdir ki, martın 1-də parlament sessiyasının açılışında iştirak etmək üçün koronavirus testindən keçmişdir: "Mənə məlumat verdilər ki, nəticə pozitivdir. Bununla əlaqədar mövcud protokola riayət edərək yaxın günlərdə təcriddə olacağam".

"Todo Noticias" telekanalı xəbər verir ki, son vaxtlar Vissotti ilə görüşdüyündən Baş nazir Santyaqo Kafyero da təcrid olunmuşdur.

## ABŞ 76 səudiyyəliyə qarşı sanksiyalar tətbiq etdi



ABŞ administrasiyası jurnalist Camal Qaşıqçının 2018-ci ildə Türkiyədə öldürülməsi ilə əlaqədar olaraq Səudiyyə Ərəbistanının 76 vətəndaşına qarşı viza sanksiyası tətbiq etmişdir. Bu barədə dövlət katibi Entoni Blinken məlumat vermişdir.

Dövlət Departamentinin məlumatına görə, bu 76 nəfər xaricdəki dissidentləri təhdid edirdi, onların adları Qaşıqçının qətli işində keçir. Özü də sözügedən şəxslərin digər cinayətlərin törədilməsində də əli olub.

Bundan əlavə, ABŞ Maliyyə Nazirliyi "Qlobal Maqnitski aktı" çərçivəsində Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, şahzadə Məhəmməd bin Salman Al Səudun ən yaxın köməkçisi, general Əhməd Əsiriyə qarşı sanksiyalar tətbiq etmişdir. Qara siyahıya həmçinin Milli Qvardiyanın vəliəhdə tabe olan elit bölməsi salınmışdır.

ABŞ Milli Kəşfiyyatı srağagün təqdim etdiyi hesabatda Səudiyyə Ərəbistanının vəliəhdini Qaşıqçının qaçırılması və ya öldürülməsi əməliyyatını bəyənməkdə ittiham etmişdir.

Öz növbəsində Səudiyyə Ərəbistanı hökuməti ABŞ Milli Kəşfiyyatının hesabatını qətiyyətlə rədd etmişdir. Krallığın Xarici İşlər Nazirliyi bəyanatla çıxış edərək ABŞ kəşfiyyatının hesabatında yer alan ittihamların təhqiramiz və səhv olduğunu, heç bir şəkildə qəbul edilməyəcəyini bildirmişdir.

## BMT münaqişə zonalarında peyvəndləmə barədə qərar qəbul etdi



BMT Təhlükəsizlik Şurası yekdilliklə qətnamə qəbul edərək münaqişə zonalarında yaşayan 160 milyon nəfərə qədər adamın koronavirusa qarşı peyvəndlənməsini təmin etmək üçün dayanıqlı humanitar barışığa çağırmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Təhlükəsizlik Şurasında sədrlik edən Böyük Britaniyanın hazırladığı sənəd peyvəndlərin ədalətli paylanmasını da tələb edir. Qətnamədə deyilir ki, inkişaf etmiş ölkələr inkişaf etməmiş və ya az inkişaf etmiş ölkələrə koronavirus peyvəndini pulsuz verə bilər.

Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsi Barbara Vudvord sənədin qəbul edilməsini yüksək qiymətləndirmişdir.

## Tereza Mey koronavirusa qarşı peyvəndləndi



Böyük Britaniya hökumətinin sabiq başçısı Tereza Mey koronavirusa qarşı peyvəndlənmişdir. Bu barədə siyasətçinin özü məlumat vermişdir.

64 yaşlı Mey "Twitter" səhifəsində yazmışdır: "Mən indicə ilk koronavirus peyvəndi vurdurdum. Təhlükəsiz, effektiv və ağrısızdır. Öz növbənizdə özünüzü peyvənd etdirin. Yalnız bir-birimizi müdafiə edərək virusa üstün gələ bilərik".

## Nigeriyada şaxtaya hücum zamanı 22 nəfər həlak oldu



Nigeriyanın şimal-qərbində, Zamfara ştatında qızıl şaxtasına silahlı hücum nəticəsində 22 nəfər həlak olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, motosiklli silahlılar Dankurmi rayonunda şaxta işçilərini atəşə tutmuşlar.

Srağagün səhər Zamfara ştatında internat məktəblərinin birindən 317 qız şagird qaçırılmışdır. Ştat son beş ildə heyvandarlıqla məşğul olan fulani tayfası ilə fermerlər arasında toqquşma meydanına çevrilmişdir.

# Fevralın sonuncu günü ölkə ərazisində havanın əsasən yağmursuz olacağı gözlənilir

Azərbaycanda fevralın 28-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 2-4°, gündüz 9-13° isti, Bakıda gecə 2-4°, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80 faiz, gündüz 50-55 faiz təşkil edəcək.

Fevralın 28-də Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi




əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 11-16° isti, dağlarda gecə 0-5° şaxta, yüksək dağlıq ərazilərdə 9-13° şaxta, gündüz 3-8° isti olacağı gözlənilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, fevralın 28-də Abşeron yarımadasında meteoroloji amillərin zəif tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişlidir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 10-15° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, yüksək dağlıq ərazilərdə 9-13° şaxta, gündüz 3-8° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 11-16° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru havanın yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 5-9° şaxta, gündüz 3-8° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 11-16° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 3°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 0-4°, gündüz 6-10° isti olacağı gözlənilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanovaya anası

**GÜLBACI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azercell Telekom" MMC-nin kollektivi şirkətin Transmissiya Şəbəkəsi bölümünün ekspert mühəndisi

**FUAD ƏLİ OĞLU MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət bələdiyyəsi fakültəsinin DB19/1 və DB19/2 qrup tələbələri tələbə yoldaşları Lütfi Nuriyevə atası

**FİKRƏT NURİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri,*
*Mətbuat prospekti,*
*529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5233**
**Sifariş 375**
**Qiymətı 40 qəpik**